www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 noyabr 2015-ci il Çərşənbə № 256 (6284) Qiyməti 40 qəpik

**Xəbər**

## "Laçın"ın sahibi öldü, ticarət mərkəzi bağlandı

yazısı səh.3-də

**Gündəm**

### "5 rayon" məsələsi yenidən gündəmə qayıdır



"Stratfor"un iddiasına görə, Moskva ərazilərlə bağlı Bakı üçün lobbiçilik edir; "kölgə kəşfiyyatı": "Azərbaycanın hərbi yola əl atacağı həmişə gündəmdədir"...

yazısı səh.9-da

### Dollar 1,50 manata qədər bahalaşa bilər

yazısı səh.11-də

### Müəllimlər iki aydır maaş ala bilmir

yazısı səh.10-da

### G20-də Əsədin "qələmi qırıldımı?"

yazısı səh.12-də

### Rusiya təyyarəsini vuranı tapana 50 milyon dollar verəcək

yazısı səh.8-də

### Media kimə AXCP sədri deyəcək - Əli Kərimliyə, yoxsa...

yazısı səh.3-də

### Azərbaycan nefti 43 dollardan da aşağı düşdü

yazısı səh.11-də

*Hacı İlqar İbrahimoğlu:*

### "Açılım labüddür"

yazısı səh.4-də

### Qoluna qandal vurulan məşhurlar danışdı

yazısı səh.6-da

### Fazil Məmmədovun müavini danışdı

yazısı səh.2-də

### Ölkənin internet problemi düzəldi, amma...

yazısı səh.13-də

### ABŞ-ın yüksək vəzifəli şəxsləri Azərbaycana gəlir

yazısı səh.2-də

## İqtidar "bosları" Bakı İstintaq Təcridxanasına yığır

# "RABİTƏÇİ MAFİYASI" ÇÖKDÜRÜLÜR - SENSASİON HƏBSLƏRİN SİRRİ

YAP Nəzarət Təftiş Komissiyasına sədrlik edən Məmməd Məmmədovu kiminsə "nəzarət və təftiş" etməyə gücü çatmayıb; həbs edilən "Aztelekom" rəhbəri antikvar və xaricdə daşınmaz əmlaklar alıb; "Bakutel-2015"in əksər təşkilatçıları qandallanıb, bəs sərgini kim keçirəcək?




yazısı səh.5-də

## MSK-dan şok qərar: Çingiz Əsədullayevin mandatı alındı

90 saylı Ağdaş seçki dairəsinin nəticələri ləğv olundu; Eldar Mahmudovun qudasının rəhbərlik etdiyi "Azərqazbank" da əlindən alınır

yazısı səh.3-də



### Mübariz Mənsimova yenə İŞİD-lə neft alveri ittihamı

yazısı səh.11-də



*Elmar Hüseynovun bacısı:*

### "40 gün oldu 11 il, hanı qatillər?"

yazısı səh.7-də



### General Çovdarov təcridxanada "burjuy" ola bilmədi

yazısı səh.6-da

Elmira Axundova

YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

## Zakir Həsənov Türkiyənin Quru Qoşunları komandanı ilə görüşüb


Zakir Həsənov

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Quru Qoşunları komandanı, ordu generalı Salih Zeki Çolak ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Azərbaycanın müdafiə naziri ilə Türkiyə Quru Qoşunları komandanı arasında təkbətək və geniş tərkibdə görüş keçirilib. Görüşdə Z. Həsənov ölkələrimiz arasında hərbi əməkdaşlığın ikitərəfli və NATO çərçivəsində aparıldığını, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu vurğulayıb. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Azərbaycana səmərəli səfərini xatırladan nazir son illər ölkələrimizin həm Quru Qoşunları, həm də Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini xüsusi qeyd edib.

Sonra regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycanla Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin inkişaf perspektivləri, hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq imkanları və digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Səfər noyabrın 19-dək davam edəcək.

## "Bank Technique"nin adı yenə dəyişdi




**Etibar Əliyevin qayıdışından sonra aktiv start götürən "Bank Technique" daha bir dəyişikliyə imza atıb.**

"Bank Technique" öz əvvəlki adını geri qaytarıb. Bundan sonra bank "Texnika Bank" adı ilə fəaliyyət göstərəcək.

Eyni zamanda, "Texnika Bank" müştərilər üçün kreditlərin verilməsinə başlayıb. Bank artıq müştərilərin biznes layihələrini qəbul etdiyini və kreditləşmənin asan şəkildə həyata keçiriləcəyini elan edib.

## AZAL aeroportlarda təhlükəsizlik tədbirlərini gücləndirib

**AZAL dövlət aviasiya şirkəti Bakı beynəlxalq hava limanında və bütün regional aeroportlarda təhlükəsizlik tədbirlərini gücləndirib. Xəbəri çərşənbə axşamı şirkətin mətbuat xidməti yayıb.**

Tədbirlərin gücləndirilməsi Misirdə terror aktı nəticəsində Rusiyaya məxsus Airbus A321 təyyarəsinin qəzaya uğraması xəbərinin təsdiq edilməsi ilə əlaqədardır, deyə mənbə bildirib.

Hazırda bütün aeroportların təhlükəsizlik xidmətlərinin işi təhlil edilib, aviasiya təhlükəsizliyi rejiminin gücləndirilməsi məqsədilə heyətə əlavə təlimatlar verilib.

## Azərbaycan əhalisinin sayı açıqlanıb

**Bu ilin əvvəlindən Azərbaycan əhalisinin sayı 83,5 min nəfər və ya 0,9% artaraq oktyabr ayının 1-i vəziyyətinə 9 mln. 676 min 500 nəfərə çatıb. Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, bir kvadrat kilometrə əhalinin sıxlığı 112 nəfərdir. Əhalinin 53,1%-i şəhər, 46,9%-i isə kənd sakinləridir. Əhalinin 49,8%-ni kişilər, 50,2%ni isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1009 qadın düşür.**

Bu 9 ayı ərzində ölkədə 123,3 min körpə doğulub və əhalinin hər 1000 nəfərinə bu göstərici 17,3 təşkil edib. Doğulan körpələrin 53,2%-ni oğlan, 46,8%-ni qız uşaqları təşkil edir. Doğulan körpələrdən 2238-i əkiz, 66-sı isə üçəmdir.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən bu ilin yanvar-sentyabr ayları ərzində 41 min ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9-dan 5,7-yə qədər azalıb.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Generalın ittihamı ağırlaşdı: qətl və adam oğurluğu...

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.**



Onun barəsində həbs-qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarından apelyasiya şikayəti verilməyəcək.

A.Çovdarova qarşı 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham olunur.

Bundan başqa, onun barəsində Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə də cinayət işi açılıb ("Report").



## Qənimət Zahidi tutduran qadın həbs edildi

**Səbayel Rayon Polis İdarəsinin 41-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Sağlamlıq Kompleksində işləyən Xanım Nəsirovanın və Alisa Cəfərovanın iş otaqlarından, habelə Gülnarə Axundovanın çantasından pul oğurlayan qadın tutulub. Modern.az-ın Daxili İşlər Nazirliyinə istinadən verdiyi xəbərə görə, oğurluqda şübhəli bilinən Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş Sevgiladə Quliyevadır.**

Modern.az saytına məlum olub ki, tutulan qadın Azərbaycan cəmiyyətinə və mediaya yad şəxs deyil. 2007-ci ildə məhz onun şərləməsindən sonra "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid tutulmuşdu.

İndi Fransada mühacirətdə baş redaktor Q.Zahid Sevgiladə Quliyeva guya sevgi komplimenti söyləməsindən sonra Vüsal Qasımovu döyməkdə ittiham olunaraq həttа 4 il müddətinə azadlıqdan məhrum edilib.

Bundan başqa, indi oğurluqda təqsirli bilinən Sevgiladə Quliyeva 2009-cu ildə həbs edilib. Onu o zaman Xətai Rayon Polis İdarəsinin əməkdaşları yaxalamışdılar. Ağdam rayon sakini Sevgiladə Quliyevanın saxlanılmasına səbəb "Xətai" metrosunun yaxınlığında narkotik maddədən istifadə etməsi olmuşdu.

Onun üzərindən 0.63 qram heroin tapılmış və narkotik maddədən istifadə etdiyini boynuna almışdı.



## Leyla Əliyevanın kafesinin açılışı oldu

**Bakıda yenilənən "Baku cafe"nin açılış mərasimi baş tutub. "Qafqazinfo" buro247.az-a istinadən xəbər verir ki, tədbirdə Azərbaycanın tanınmış simaları, mədəniyyət və incəsənət xadimləri, idmançılar, o cümlədən prezidentin qızı Arzu Əliyeva və həyat yoldaşı Səməd Qurbanov, Fidan Muradova, Mila Əsgərova, Tahir İmanov, Murad Dadaşov, Elnur Məmmədli, Müəllim Alışanov, Ramin Hacıyev, Rüstəm Hacıyev və başqaları iştirak ediblər.**

Qeyd edək ki, "Baku Cafe"nin təsisçisi Heydər Əliyev Fondunun vitse-prezidenti, "Baku" jurnalının baş redaktoru, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevadır.

## Əhali 9 ayda 1 milyard manata yaxın kredit faizi ödəyib

**2015-ci ilin yanvar-oktyabr aylarında əhalinin nominal gəlirləri 5,7% artaraq 33,5 mlrd. manata çatıb. Virtualaz.org Dövlət Statistika Komitəsinə istinadən bildirir ki, gəlirlərin əhalinin hər nəfərinə düşən həcmi isə 4,4% artaraq ölkənin istehlak bazarında qiymətlərin bahalaşmasını 0,7 faiz bəndi üstələyib.**

Hesabat dövründə gəlirlərin 76,3%-i son istehlaka, 9,3%-i vergilərin, sığorta və üzvlük haqlarının ödənilməsinə, 11,5%-i faizi əmanətlərin və kapitalın artırılmasına, 2,9%-i kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib. Başqa sözlə, bu ilin 9 ayında 971,5 mln. manatı kreditlər üzrə faizlərin ödənilməsinə yönəlib.

Əhalinin sərəncamda qalan gəlirləri 30,4 mlrd. manat təşkil edərək əvvəlki ilin eyni dövründəkindən 5,7% çox olub.

## Vasif Talıbov yenidən Naxçıvan Ali Məclisinin sədri seçildi

**Bugün Naxçıvan şəhərində V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilib. APA-nın məlumatına görə, sessiya saat 11:00-da başlayıb. Vasif Talıbov yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədri seçilib.**

Qeyd edək ki, noyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 seçki dairəsi üzrə seçkilər keçirilib və 45 deputat seçilib.


Natiq Əmirov

## Fazil Məmmədovun müavini danışdı

**Vergilər nazirinin müavini Natiq Əmirov nazir Fazil Məmmədovun işdən çıxarılması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

"Qafqazinfo"nun əməkdaşının sualını cavablandıran N. Əmirov bildirib ki, nazirliyin mətbuat xidmətinin rəhbəri iki saytda belə məlumat getdiyi barədə onlara məlumat verib: "Daimi ünsiyyətdə olduğumuz mətbu orqanlarda belə məlumatlar getməyib. Cəmiyyətdə, ailə daxilində də hər hansı söhbətlər olur. Hər bir nazirin işdən çıxarılması prezidentin səlahiyyətlərinə aiddir. Və bununla bağlı informasiya yaymaq tərəfimizdən ədəbsizlik kimi qəbul edilir.

Hazırda nazirliyin fəaliyyətində problemin olduğunu müşahidə etmirik. Qarşıya qoyulan vəzifələr icra edilib. Ciddi qəbul etdiyimiz heç bir mətbu orqanda bu haqda məlumat görməmişik".

## ABŞ-ın yüksək vəzifəli şəxsləri Azərbaycana gəlir

**"Bu həftə ABŞ-dan olan ticarət missiyasının və gələn həftə yüksək vəzifəli şəxslərin Azərbaycana səfəri gözlənilir".**

APA-nın məlumatına görə, bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta bildirib. Onun sözlərinə görə, hansı nümayəndə heyətinin gəlməsindən asılı olmayaraq, onlar 2 ölkə arasında ümumi əlaqələrə toxunur: "Bu həftə Azərbaycana gələn ABŞ-ın ticarət məsələləri ilə məşğul olan nümayəndə heyəti ABŞ-la Azərbaycan arasında iqtisadi əlaqələri genişləndirmək imkanlarına diqqətini yönəldəcək. Həmçinin ABŞ-dan Azərbaycana gələn həftə gözlənilən yüksək vəzifəli rəsmilərin səfəri zamanı üç əsas sahə, təhlükəsizlik, iqtisadiyyat və demokratiya da daxil olmaqla, iki ölkə arasında ikitərəfli əlaqələr müzakirə olunacaq".


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

**AXCP-də tarix, deyəsən, yenidən təkrarlanır. Partiya yenidən Razi Nurullayevin və Əli Kərimlinin rəhbərliyi ilə iki yerə parçalanıb və hər iki tərəf özünü AXCP-nin hüquqi varisi elan edib. Artıq bununla bağlı sənədlər də Ədliyyə Nazirliyinə təqdim olunub. Əli Kərimlinin təqdim etdiyi sənədlər nazirlikdən geri qaytarılıb, Razi Nurullayevin təqdim etdiyi sənədlərin isə qəbul edilib-edilməyəcəyinə baxılmaqdadır. Bununla belə, heç bir tərəf AXCP adından imtina etmir və adın əvvəlinə hər hansı əlavə etmək fikrində deyil.**

# Media kimə AXCP sədri deyəcək - Əli Kərimliyə, yoxsa...

## KİV rəhbərləri məsələdə problem görmürlər...

Xatırladaq ki, oxşar durum 2000-ci ildə partiyanın qurucusu Əbülfəz Elçibəyin vəfatından sonra yaranmışdı. Bu zaman media iki yerə parçalanan partiyanın Əli Kərimlinin rəhbərliyində olan qanadına "islahatçılar", Mirmahmud Mirəlioğlunun rəhbərliyində olan qanadına isə "klassiklər" adını vermişdi. Sonradan Mirmahmud Mirəlioğlunun partiyasının adını Klassik Xalq Cəbhəsi Partiyası elan etməsi ilə konflikt həllini tapdı.

Bəs indiki halda hər iki tərəf AXCP adında israr etsə, media və YAP onları necə təqdim edəcək?

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid bildirdi ki, AXCP-nin tarixində artıq belə bir təcrübə olub:** "Hesab edirəm ki, indi də təbii prosesin nəticəsində media tərəfindən də qəbul olunan daha uğurlu bir ad seçəcəklər. Mən indi ekspromt bir ad təklif edə bilmərəm. Ancaq hesab edirəm ki, bu bizim jurnalistlərin yazısında avtomatik üzə çıxacaq. Burada hər hansı qondarma ada ehtiyac yoxdur. Proses dərinləşdikcə, media özü onlara ad verəcək".

**"Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Aynur Camalqızı isə bildirdi ki, bu məsələdə Ədliyyə Nazirliyinin verəcəyi qərara uyğun davranacaqlar:** "Biz media orqanı olaraq Azərbaycanın ictimai-siyasi həyatında baş verən hər bir hadisəni işıqlandırırıq. Bu məsələdə də eyni qaydada davranacağıq. İstər Razi Nurullayevin partiyasında baş verənlər, istərsə də Əli Kərimli və onun ətrafında baş verən olaylarla bağlı məlumatları işıqlandıracağıq. Onların arasında olan konfliktə gəlincə, burada bir media orqanı nə edə bilərsə, biz də onu edəcəyik, qalan məsələlərə qarışmırıq. AXCP ətrafında dəfələrlə belə situasiya yaranıb və təbii olaraq zamanla onlar adla bağlı razılaşıblar. İndi də Ədliyyə Naziliyinə müraciət olunub. Qanun hansı partiyanın xeyrinə qərar verəcəksə, biz də buna uyğun hərəkət edəcəyik".

**Lent.az-ın baş redaktoru Qabil Abbasoğlu da vurğuladı ki, rəhbərlik etdiyi media orqanı bu məsələdə dövlət qurumlarının qərarlarına və dövlətin qanunlarının tələblərinə əsaslanacaq:** "Bu tipli məsələlərdə subyektiv yanaşmaq doğru deyil".

**Yeni Azərbaycan Partiyasından olan deputat Məlahət İbrahimli isə adının nə olmasından asılı olmayaraq, konstruktiv niyyətli olan bütün siyasi partiyalarla əməkdaşlıq etməyə hazır olduqlarını bildirdu:** "Biz hər zaman dialoqa açıq olmuşuq. Burada şəxsin kim olması önəmli deyil. Əsas odur ki, əməkdaşlıqda etibarlı və konstruktiv olsun. Partiyanın adının nə olması onların öz işidir. Bizim üçün önəmli olan partiyanın adı yox, missiyası, əməkdaşlıq üçün atacağı addımlardır. Onların arasındakı konfliktlər bizi maraqlandırmır. Yeni Azərbaycan Partiyası niyyəti səmimi olan hər bir partiya ilə əməkdaşlığa hazırdır".

**Razi Nurullayev isə açıqlamasında bir daha AXCP adına iddialı olduğunu vurğuladı, qarşı tərəfi partiyasının adını dəyişməyə çağırdı:** "Təbii ki, biz iddia edirik və düşünürük ki, əsl AXCP, Əbülfəz Elçibəyin ideyalarına uyğun olan AXCP-ni təmsil edirik. Biz istərdik ki, media bizi əsl AXCP kimi təqdim etsin. Çünki artıq Ədliyyə Nazirliyi Əli Kərimlinin sənədlərini geri qaytarıb. Bu məsələ məhkəmə çəkişməsi mövzusudur. Məsələ məhkəməyə çıxsa belə, biz qalib gələcəyik. Mediada adla bağlı anlaşılmazlıq yaranacağı ehtimalı bizi narahat etmir. Biz bunu gözə alaraq yol çıxmışıq".

❑ **Nərgiz LİFTİYEVA**

# MSK-dan şok qərar: Çingiz Əsədullayevin mandatı alındı

## 90 saylı Ağdaş seçki dairəsinin nəticələri ləğv olundu; Eldar Mahmudovun qudasının rəhbərlik etdiyi "Azərqazbank"da əlindən alınır



Çingiz Əsədullayev

**Mərkəzi Seçki Komissiyasının (MSK) noyabrın 17-də keçirilən iclasında noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərlə bağlı müraciətlərə baxılıb və şok qərar qəbul edib.**

90 saylı Ağdaş seçki dairəsindən deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyasından qeydə alınmış İlqar Vəliyev və bu dairədən deputatlığa namizədliyi qeydə alınmış Qalib Qarayev MSK-ya müraciət edərək həmin seçki dairəsində səsvermənin nəticələrinin ləğv edilməsini xahiş ediblər.

İclasda bildirilib ki, müraciət ekspert qrupu tərəfindən araşdırılıb və müraciətdə qeyd olunan şikayətlər öz əksini tapıb. Buna görə də MSK 90 saylı Ağdaş seçki dairəsində səsvermənin nəticələrini ləğv edib.

Qeyd edək ki, Ç.Əsədullayev sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudasıdır. Nazirin işdən çıxarılmasından sonra Əsədullayevin mandat alması real görünmürdü. Amma onun adı noyabrın 1-dən sonra deputat seçilənlərin siyahısında vardı.

MTN şefinin vurulmasından sonra Çingiz Əsədullayevin Müşahidə Şurasının sədri olduğu "Azərqazbank"da yoxlamalar başlamışdı. Bildirilirdi ki, bu yoxlamalar Eldar Mahmudovun məsələsi ilə bilavasitə bağlıdır. Belə ki, bankda şübhəli hesabların olması barədə rəsmi qurumlarda məlumatlar olub. Məlumatda o da iddia olunurdu ki, əgər araşdırmalar hər hansı bir neqativ hal aşkar edərsə, "Azərqazbank"ın Müşahidə Şurasının sədri olan Çingiz Əsədullayevi heç də yaxşı perspektiv gözləməyəcək. O, mandatını itirməklə yanaşı, bankdan uzaqlaşdırılacaq, hətta istintaqa cəlb olunacaq.

Çingiz Əsədullayevin rəhbərlik etdiyi "Azəriqazbank" 1992-ci ildə təsis olunub və hazırda Azərbaycanın aparıcı banklarından biri kimi tanınır. Bankın səhmdarları sırasında iki böyük təşkilat mövcuddur: Beynəlxalq Maliyyə Korporasiyası və "Kazimir İnvestment LTD" Amerika Sərmayə Fondu. Özəl sektora sərmayə yatıran Beynəlxalq Maliyyə Korporasiyası Dünya Bankı Qrupunun təşkilatlarından biridir və 2006-cı ildən etibarən ASC "Azəriqazbank" ın 17.5% həcmində səhmlər paketinin sahibidir. "Kazimir İnvestment LTD" Amerika Sərmayə Fondu 2008-ci ildən etibarən bankın 10% səhmlər paketinə malikdir. Hazırda bankın çox saylı müasir bank xidmətlərini, o cümlədən hesablaşma-kassa xidmətləri, istehlak və biznes kreditləri, korporativ kreditlər, depozitlər, plastik kartlar, pul köçürmələri, sənədli əməliyyatlar, səyahət çekləri və kommersiya çekləri xidmətlərini göstərir.

❑ **"Yeni Müsavat"**

# Həbs olunan şəxslərin yaxınlarının incidilməsi doğrudurmu?

## Mirvari Qəhrəmanlı: "Heç kimin tutulan şəxsin günahı olmayan yaxınlarına zərər vermə kimi haqqı yoxdur"

**Azərbaycanda qəribə bir tendensiya var: bir şəxs həbs olunduğu zaman onun yaxın qohumları da özlərinə qarşı təhlükə hiss edirlər. Təcrübə göstərir ki, bəzi hallarda həbs edilən və ya siyasi fəaliyyətinə görə təqib olunan şəxslərin yaxınları hətta ondan imtina etmək məcburiyyətində qalırlar. Çox zaman isə həbs olunan şəxsin qohumlarının tutduqları vəzifələrdən azad edilməsi hallarının şahidi oluruq.**

Eləcə də son günlər "MTN işi" üzrə həyata keçirilən həbslər zamanı da bunu müşahidə etmək olur. Məsələn, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun yaxınları artıq öz yaşadıqları evi tərk ediblər. Onların hansı səbəbdən bu addımı atmaları dəqiq məlum olmasa da, hər halda, bu, Çovdarovun həbsinə görədir. İlkin ehtimallara görə, onlar da özləri üçün hər hansı bir təhlükə hiss edirlər.



Mirvari Qəhrəmanlı

**Məsələ ilə bağlı musavat.com-a hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı danışıb. O bildirib ki, bu kimi halların baş verməsi arzuolunmazdır:**

"Bu sahədə aparılan siyasət kəskin dəyişilməlidir. Hər hansı bir şəxsin özünə görə onun qohumlarına, yaxınlarına təzyiq edilməsi yolverilməz haldır. Bunu doğru saymaq olmaz. Vaxtilə belə hal mənim də başıma gəlmişdi. Mənə görə ailəmə ciddi təzyiqlər edilirdi. Düşünürəm ki, tutulan şəxs cinayətkar olsa da, ağır cinayət əməlləri törətsə belə heç kimin onun günahı olmayan yaxınlarına zərər vermə kimi haqqı yoxdur. Hüquqda belə bir şey mövcud deyil. Bu hal eyni zamanda ölkənin imicinə də ciddi xələl gətirir. Düşünürəm ki, bəlkə də bununla bağlı yuxarı səviyyədə göstəriş verilir. Bəzən də heç yuxarı səviyyəli göstəriş olmur. Sadə bir məmurun əməlləri nəticəsində belə bir hallar baş verir. Bir məqam da var ki, bəzən məhbusun yaxınlarına təzyiq etməklə onu hər hansı bir məsələdə suçlayırlar. Olmayan cinayəti üzərinə götürdürlər. Bu hallara da rast gəlmək olur. Bu baxımdan hesab edirəm ki, istənilən vəzifə sahibinin günahına görə qohumlarından istifadəsi mütləq qaydada aradan götürülməlidir. Bu sahədə olan siyasətə çox qısa zamanda son qoyulmalıdır".

❑ **Əli RAİS**

# "Ekskluziv danışmıram..."

## Nadir Axundov AzTV-dən qovulubmu?

**AzTV-nin Musiqi verilişləri departamentinin rəhbəri Nadir Axundovun tutduğu vəzifədən azad edilməsi ilə bağlı məlumat yayılıb. Bildirilir ki, N.Axundovun vəzifədən azad edilməsi "MTN işi" ilə bağlıdır. Məlumata görə, o, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla yaxın qohumdur. Nadir Axundov Eldar Mahmudovun bibisi qızı ilə ailəlidir.**

Məsələ ilə əlaqədar olaraq Nadir Axundovla əlaqə saxladıq. O, haqqında yayılan məlumatlara bu cür münasibət bildirdi: "Mən bu barədə heç bir yerə ekskluziv olaraq danışmıram. Televiziyanın mətbuat xidməti ilə əlaqə saxlayıb sualınıza cavab alın".

Qeyd edək ki, AzTV-nin mətbuat xidmətinin rəhbəri Xatirə Qasımova mətbuata açıqlamasında bildirib ki, Nadir Axundov Musiqi verilişləri departamentinin rəhbəri deyil: "O, "Mədəniyyət" telekanalının direktor müavinidir".

❑ **Xalidə GƏRAY**

# "Laçın"ın sahibi öldü, ticarət mərkəzi bağlandı

**Nizami rayonu ərazisində yerləşən "Laçın" ticarət mərkəzi bağlanıb.**

Ticarət mərkəzində çalışan işçilərin verdiyi məlumata görə, səbəb obyektin sahibi Maqsud Vəliyevin dünyasını dəyişməsidir. M.Vəliyevin ölümü ilə əlaqədar ticarət mərkəzinin bir neçə gün bağlı olacağı deyilir (modern.az).

YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

**İŞİD noyabrın 13-də Parisdə baş verən zəncirvari terroru üzərinə götürdükdən sonra dünyada islamofobiya meylləri günlənməkdədir. DEVAMM sədri Hacı İlqar İbrahimoğlu "Yeni Müsavat"a müsahibəsində terrorun dinlə əlaqələndirilməsinin yaratdığı mənzərəyə aydınlıq gətirib. Müsahibənin ikinci hissəsini təqdim edirik.**



**"Qısa zaman üçün ən uğurlu həll "sıfır" nöqtəsinə qayıtmaq, ardınca da açılım etməkdir. Həbsdə olan insanlar azad edilməli, yaradılan süni problemlər aradan qaldırılmalı, vətəndaş cəmiyyətinə, demokratiyaya qarşı, demokratik təsisatlara qarşı baş verən proses dərhal dayadırılmalıdır"**

# "Açılım labüddür"

## Hacı İlqar İbrahimoğlu: "Ölkədə ən qısa zamanda bir neçə istiqamətdə açılım vacib və labüddür; Arif Yunusun həbsdən azad edilməsini mən həmin açılımın bir elementi kim qəbul edirəm"

*(əvvəli ötən sayımızda)*

***- Siz nələr təklif edirsiniz?***

- Açılım olmalıdır. Trayektoriya üzrə... Proses necə başladılıbsa, o cür də geriyə, "sıfır" nöqtəsinə qayıdılmalıdır. 2009-2010-cu illərdə Azərbaycanda dini cameə ilə dövlətin münasibətləri yetərincə müsbət idi. Ondan sonra azan qadağan edildi, ardınca məscidlərin sökülməsi, daha sonra hicab prosesi... Bunların hamısı heç bir zəmini olmayan süni basqılar idi və ona görə də təbii olaraq etiraz doğururdu. Hakimiyyət bu etirazları yatırtmağın yolunu etiraz edənləri repressiya eləməkdə gördü. Sanki göstərmək istəyirdilər ki, burada böyük, təhlükəli proses var. Ancaq bu belə deyildi. Təbii, müsəlmanın məscidini sökəndə, azanını qadağan edəndə, uşağını məktəbə qoymayanda etiraz edəcək. Ortada çox ciddi hesablamalar var idi. Mən düşünürəm ki, bu məsələdə sionistlərin, İsrailə aid olan beyin mərkəzlərinin "ayı yardımı" olub. Biz 2009 - 2010 - da demişdik ki, Azərbaycanı hicab böhranına salmayın, Türkiyə bu problemdən yenicə qurtulub. Türkiyəni illər öncə belə bir gərginliyin içərisinə salmışdılar. Nə baş verdi? Türkiyə bir neçə seçki ancaq bu mövzuya kilidləndi. Qardaş ölkədə indi-indi sakitlik yaranır. Azərbaycanı Türkiyənin artıq çözüb bitirdiyi problemə salmağa ehtiyac yox idi. Ən birincisi ona görə ki, Azərbaycanda mövzu o miqyasda deyildi. Amma saldılar. Bu günlər böyük təəssüf hissi ilə yada saldığımız hadisələr baş verdi. Əslində dini cameənin etirazı çox yumşaq idi. İnsanlar, sadəcə, sözlə haqlarını tələb edirdilər. Hökumətin reaksiyası isə adekvat deyildi. Vətəndaş cəmiyyətinə qarşı da eyni proses baş verdi. Vətəndaş cəmiyyətində İntiqam Əliyev, Rauf Mirqədirov kimi bir çox dəyərli insanları həbs elədilər. Onlar bu cəmiyyətə şüurla, intellektlə xidmət ediblər. Həmin cameəyə də səlib yürüşü başladıldı. Ona görə də ölkədə ən qısa zamanda bir neçə istiqamətdə açılım vacib və labüddür. Arif Yunusun həbsdən azad edilməsini mən həmin açılımın bir elementi kim qəbul edirəm. Amma tək bu fakt yetərli deyil, bunun davamı olmalıdır. Belə başa düşülür ki, kimlərsə öz oyunlarını, öz işlərini rahat görmək üçün gündəm yaradırdılar ki, baxın, filan yerdə filan təhlükə var. Amma özləri bu ölkənin milli təhlükəsizliyi üçün təhlükə imişlər.

**"İnsanlar özlərini, öz dini inanclarını realizə eləyə bilməyəndə, radikal, təkfirçi-vəhhabi və bu kimi proseslərin əl-qolları uzanır"**

***- Yeri gəlmişkən, soruşaq ki, sizcə, Milli Təhlükəsizlik Nazirliyində gedən proses dini cameə ilə hökumətin münasibətlərinə necə təsir edəcək?***

- Mən hesab edirəm ki, bu açılım ölkənin normal, dayanıqlı inkişafı, ölkənin kataklizmlərdən uzaq olması üçün zəruridir. İllərlə heç bir əsas olmadan, süni şəkildə dini camedən, vətəndaş cəmiyyətindən "xoxan" düzəldilib. Guya bu kəsimlər milli təhlükəsizlik üçün problem yaradırmış. Bu gün ortaya çıxır ki, real təhlükə bunu iddia edənlərin özləri imiş. Düşünürəm ki, qısa zaman üçün ən uğurlu həll "sıfır" nöqtəsinə qayıtmaq, ardınca da açılım etməkdir. Həbsdə olan insanlar azad edilməli, yaradılan süni problemlər aradan qaldırılmalı, vətəndaş cəmiyyətinə, demokratiyaya qarşı, demokratik təsisatlara qarşı baş verən proses dərhal dayandırılmalıdır. Bunlar baş verməsə, ölkədə dayanıqlı inkişafdan danışmaq mümkün deyil. Bundan başqa, ölkədə söz azadlığı ilə bağlı problemlər yoluna qoyulmalıdır. Azad media illərdir necə bir basqı altındadır, biz hamımız bunları yaxşı görürük. Media faktiki olaraq nəfəs ala bilməyəcək duruma gətirilib. Açılım siyasətində media və söz azadlığının olmasını da zəruri, vacib sayıram. Digər bir məsələ iqtisadiyyat sahəsindəki açılımlardır. İnsanların öz həyatlarını minimal təmin etmək üçün minimal şəraitləri olmalıdır. Bunlarsız ölkə vətəndaşının rifaha qovuşması mümkün deyil.

***- Hacı, bu yaxında Gürcüstanda olmusunuz. Səfəriniz necə keçdi?***

- Borçalıya Marneuli Məhərrəm ayı ilə bağlı keçiriləcək tədbirlərə Gürcüstan Əhli-Beyt Cəmiyyəti tərəfindən dəvət olunmuşduq. Oradakı əziz müsəlman qardaşlarımızın yanında olmağı borc bildik, getdik. Çox məmnun olduq. Marneuli Aşura konfransı keçirdik, burdan bir neçə gənc getmişdi, onların çıxışları da maraqla dinləndi. Bundan əlavə də oradakı əziz soydaşlarımızla, müsəlmanlarla bağlı hər şey bizim üçün aktual və maraqlı idi. Müsbət təəssüratlarla dönmüşəm. Borçalıda böyük intibah prosesi, özünəqayıdış dövrü gedir. Bu çox müsbət bir prosesdir. Gürcüstandakı proseslər də ayrıca maraqlıdır. Neft, neft bumu, ciddi resurslar olmadan Gürcüstan insanların çalışması, mövcud olması üçün gözəl qaydalar yaradıb. Minimal oyun qaydaları var. Həmin oyun qaydaları çərçivəsində insanlar iqtisadi, ictimai, sosial həyatlarını çox rahat yaşayır. İnsanlar inanclarında həqiqətən sərbəstdirlər. Bu gün bizdə həmin oyun qaydaları yoxdur. Oyun qaydaları olmayanda da vəziyyət çox ağır olur. Bu oyun qaydalarının elementləri azad məhkəmə, azad seçkidən başlayır. Gürcüstan təcrübəsindən çıxış edib demək olar ki, neft və digər ciddi resurslar olmadan normal oyun qaydaları ilə səbatlı minimal inkişaf əldə etmək mümkündür. Bu oyun qaydaları olmayanda həyat ziqzaqlı olur. Azərbaycanda bu gün baş verənlərin fonunda aydın görünür ki, insanların rahat yaşamasına xidmət edən bu oyun qaydalarına bizdə də ehtiyac var.



**"Neft, neft bumu, ciddi resurslar olmadan Gürcüstan insanların çalışması, mövcud olması üçün gözəl qaydalar yaradıb"**

**"Ortada çox ciddi hesablamalar var idi. Mən düşünürəm ki, bu məsələdə sionistlərin, İsrailə aid olan beyin mərkəzlərinin "ayı yardımı" olub"**

***- Azərbaycan rəsmiləri ölkədə tolerant mühitin olması haqqında tez-tez danışır. Sizin qonşu Gürcüstanla Azərbaycanı müqayisə imkanınız var. Sizcə, hansı ölkədə bu gün din və vicdan azadlığı daha çox qorunur?***

- Gürcüstanda bu məsələlərlə bağlı ancaq müsbət emosiyalar gördüm və eşitdim. Öz dilləri ilə desək, insanların dini görüşlərini ifadə etmək, yaşamaqla bağlı heç bir məhdudiyyətləri yoxdur. Universitet açmaqdan tutmuş, konfranslar keçirməyə qədər sərbəstlikdir. Misal üçün, Azərbaycanda Aşura günü ölkənin müxtəlif yerlərində yürüşlər olur, cəmiyyətdə bir çoxları bunu qıcıqla qarşılayır. Hətta bu il Gəncə kimi bir yerdə maneələr yaradıldı. Marneulidə isə Tasua və Aşura günlərində böyük yürüşlər olub. Yəni xristian ölkəsində yaşayan azərbaycanlıların bu haqqına heç bir məhdudiyyət qoyulmayıb. Tiflisdə də həmçinin. Tiflis müsəlman cameəsi çox rahat bir ortamda öz işini görür. Digər dinlərin mənsubları da bunu çox təbii qarşılayır. Buna insanların içərisindən gələn ülvi hisslərinin realizəsi kimi baxırlar. Mən çox istərdim ki, oradakı tolerant mühit Azərbaycanda da olsun. Bu, inanclı insanların, əhli-beyt sevgisi olan insanların yaşadığı bütün coğrafiyalarda ən təbii bir prosesdir. Borçalı mahalında əslində dini kimlik çox da üzdə olmayıb. İntibah axır illərdə başlayıb. Bununla belə, orada bu, ən təbii prosesə çevrilibsə, Azərbaycanda niyə olmasın? Azərbaycanın bəzi yerlərində sovet dönəmində insanların dini inancına indikindən daha çox saygı göstərilib. Ona görə də düşünürəm ki, mütləq bir yenilənmə olmalıdır. İstənilən məsələ ilə bağlı süni gərginlik, xof yaradılan zaman nəticə əks olur. İnsanlar özlərini, öz dini inanclarını realizə eləyə bilməyəndə, radikal, təkfirçi-vəhhabi və bu kimi proseslərin əl-qolları uzanır. Buna mütləq diqqət eləmək lazımdır.

***- Hacı, Gürcüstanda yaşayan soydaşlarımız orada təkfirçi-vəhhabizmə geniş şərait yaradıldığından ara-sıra danışır, azərbaycanlıların kompakt yaşadıqları ərazilərdə vəhhabizmin mərkəzləşməsi üçün bir sıra işlər görüldüyünü deyirlər. Hətta nigarançılıqlar var idi ki, bu faktordan millət içərisində qarşıdurma yaradılması üçün istifadə edilə bilər. Səfər zamanı siz nələr müşahidə etdiniz?***

- Bu haqda bəzi informasiyalarımız var. Belə başa düşülür ki, indiki hökumətin dövründə bu proses dayandırılıb. Təkfirçi-vəhhabizmə indi Gürcüstanda xüsusi münbit şərait yaradılmır. Çox təəccüblü də olsa, bundan öncəki hakimiyyətin dönəmində onların imkanları daha da geniş olub, qərbyönümlü hakimiyyət onları himayə edib. Qərb mərkəzləri onları açıq-aşkar dəstəkləyib, onların arxasında dayanıb. Mən bir məsələni də xüsusi vurğulayım ki, bu gün Gürcüstan əhalisi Mixeil Saakaşvili dönəmindən narazılıq edəndə bu hissəni xüsusi qeyd edir, digər müsbət dəyişikliklərlə yanaşı, həmin cameəyə dövlət himayəsinin toplum içərisində necə bölücülük yaratdığını vurğulayırlar. Bütün hallarda bu, Azərbaycanda olduğu kimi, Gürcüstanın azərbaycanlıların kompakt yaşadığı ərazilərində bir süni proses idi, ona görə də cəmiyyətə hər hansı müsbət təsirindən söhbət gedə bilməz. Əgər bu gün Azərbaycan cəmiyyəti bu məsələ ilə bağlı narahatlığını ifadə edirsə, görün azlıqda olan bir toplum üçün bu necə bir ciddi fəsad qaynağı ola bilər. Düşünürəm ki, həm Azərbaycan, həm də Gürcüstan cəmiyyəti dünyadakı prosesləri göz önünə alaraq bu durumdan ciddi nəticələr çıxarmalıdırlar.

**"Marneulidə Tasua və Aşura günlərində böyük yürüşlər olub. Yəni xristian ölkəsində yaşayan azərbaycanlıların bu haqqına heç bir məhdudiyyət qoyulmayıb"**

❑ **Aygün MURADXANLI**

## İqtidar “bosları” Bakı İstintaq Təcridxanasına yığır

Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN) həbslərin yeni dalğası başlayıb. “Aztelekom” MMC-nin baş mühasibi Oqtay Rüstəmovdan sonra müəssisənin direktoru Məmməd Məmmədov barəsində həbs-qətimkan tədbiri seçilib. M.Məmmədov noyabrın 16-da axşam Səbayel Rayon Məhkəməsinə gətirilib və burada onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.




# “Rabitəçi mafiyası” çökdürülür - sensasion həbslərin sirri

### YAP Nəzarət Təftiş Komissiyasına sədrlik edən Məmməd Məmmədovu kiminsə “nəzarət və təftiş” etməyə gücü çatmayıb; həbs edilən “Aztelekom” rəhbəri antikvar və xaricdə daşınmaz əmlaklar alıb; “Bakutel-2015"in əksər təşkilatçıları qandallanıb, bəs sərgini kim keçirəcək?

M.Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur. Bundan başqa, “Bakı Telefon Rabitəsi” İstehsalat Birliyinin Nizami ATS-in rəisi Fətullah Seyidov və ATS-in mühasibi də həbs olunub.

Qeyd edək ki, M.Məmmədov YAP Mərkəzi Nəzarət Təftiş Komissiyasının (MNTK) sədridir. Fətulla Seyidov isə BTRİB-in sabiq rəisi, hazırda həbsdə olan Beytulla Hüseynovla kirvədir. F.Seyidov eyni zamanda BTRİB-in həbs edilən baş mühasibi Anar Mustafayevin də yaxın qohumudur.

### “Aztelekom” özəlləşmə əvəzinə, “özününküləşdirilib”

Məhəmməd Məmmədovun ünvanına korrupsiya ittihamları barədə zaman-zaman mediada araşdırmalar dərc edilib. “Aztelekom” beynəlxalq və şəhərlərarası telefon rabitəsi *(sifarişlə beynəlxalq və şəhərlərarası telefon rabitəsi, videokonfrans rabitə, TACkart universal danışıq sistemi)*, Bakı şəhəri və Naxçıvan MR istisna olmaqla, bütün ölkə ərazisində lokal telefon rabitəsi (57 yerli telekommunikasiya müəssisəsinin 89 məntəqəsində 108 mərkəzi və 1129 kənd (qəsəbə) ATS, 23 ATS (38 baza stansiyası) üzərindən 44 bölgə üzrə respublikanın əhali məskunlaşmış ərazisinin 80 %-də CDMA standartlı simsiz telefon rabitəsi, İP telefoniya və İP-TV xidmətləri) internet xidmətləri (genişzolaqlı və ayrılmış xətlə internet, internetə parolsuz qoşulma imkanı) xidməti göstərir. “Aztelekom”un əsas istifadəçiləri sənaye, ticarət və digər sahələrdə fəaliyyət göstərən onlarla müəssisə və təşkilatdır.

“Aztelekom” İstehsalat Birliyi bu ilin iyun ayında Məhdud Məsuliyyətli Cəmiyyətə (MMC) çevrilib. “Aztelekom” İB-in MMC-yə çevrilməsi bu telekommunikasiya nəhənginin özəlləşdirməyəcəyi deməkdir. “Aztelekom”un MMC-yə çevrilməsində M.Məmmədovun xüsusi xidməti və marağı olduğu da gələn xəbərlər sırasındadır. Belə ki, hakimiyyətdəki ciddi dayaqlarının sayəsində o, 2001-ci ildən özəlləşdirməsi planlaşdırılan müəssisəni faktiki MMC-yə çevirərək “özününküləşdirib”. Bu işdə Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun da maraqlı olduğu üzə çıxıb. Hüquq-mühafizə orqanlarına yaxın mənbəmiz deyib ki, “Aztelekom”un MMC-yə çevrilməsi prosesi şəffaf aparılmayıb, nizamnamə kapitalı ilə bağlı məlumat açıqlanmayıb.

### “YAP-a mən nəzarət edirəm, məni kim yoxlaya bilər?”

M. Məmmədov 1957-ci ildə may ayının 9-da Naxçıvan Muxtar Respublikasının Bulqan kəndində anadan olub. 1979-cu ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun elektrotexnika fakültəsini bitirib. Həmin ildən rabitə sahəsində çalışan M.Ə. Məmmədov elektrik mexaniki vəzifəsindən başlayaraq mühəndis, böyük mühəndis, stansiya xidmətinin rəisi, telefon qovşağının baş mühəndisi, layihə-axtarış kontorunun rəisi, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin baş mühəndisi və rəisi vəzifələrində işləyib.

2004-cü ildən “Aztelekom” İB-in baş direktoru təyin edilib. Məlumatlara görə, barəsində olan korrupsiya ittihamlarına baxmayaraq, M. Məmmədov hakimiyyətdəki dayaqlarına güvənərək külli miqdarda yeyinti faktlarını ört-basdır etməyə nail olub. YAP-da Nəzarət Təftiş Komissiyasına sədrlik edən M. Məmmədova kiminsə “nəzarət və təftiş” etməyə gücü çatmayıb. İddialarda deyilir ki, barəsində yazılan korrupsiya ittihamlarına həmişə gülərək reaksiya verən M.Məmmədov “YAP-a mən nəzarət edirəm, məni kim yoxlaya bilər?”, - deyirmiş. O, 11 il ərzində dövlətdən milyonlarla manat mənimsəyib və bunun hesabına oliqarxa çevrilib. “Aztelekom”un sabiq direktoru rəhbərlik etdiyi quruma daha çox özünün şəxsi obyekti kimi baxıb, hətta investisiya məqsədi ilə ayrılmış pulları mənimsəyib. Xəbərlərə görə, hər il “Aztelekom”a 25-30 milyon manat investisiya yatırılsa da, görülən və görüləcək işlərin smetası hazırlanan zaman rəqəmlər bir neçə dəfə şişirdilib.

### Antikvar və xaricdə daşınmaz əmlak

M.Məmmədov bahalı antikvar əşyalar həvəskarı kimi də tanınıb. Həmin əşyaların alınması üçün külli miqdarda vəsait xərcləyib. “Aztelekom” rəhbəri bunun üçün xüsusi mütəxəssislər ayırıbmış ki, həmin adamları ona dünyanın bir çox ölkələrindən, əsasən isə Təbriz və İstanbuldan həvəskarı olduğu antik əşya və xalçalar daşımaqla məşğul olublar.

Məlumata görə, tez-tez Türkiyəyə gedən YAP funksioneri qardaş ölkədə özünə daşınmaz əmlaklar və ticarət obyektləri alıb. M. Məmmədovun Qubada restoranı və moteli də var.

RYTN-in birbaşa telefon və internet əlaqəsinə cavabdeh olan yüksək rütbəli əməkdaşlarının kütləvi həbsi ötən həftə işdən azad edilən Əli Abbasovun azadlığını təhdid edən faktora çevrilməkdədir. Məlumdur ki, hələ nazir olduğu vaxt Ə. Abbasov Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqləri tərəfindən bir neçə dəfə dindirilib. Baş Prokurorluq, MTN və Vergilər Nazirliyinin əməkdaşlarından ibarət xüsusi istintaq qrupu bir müddətdir ki, RYTN-də ciddi yoxlamalara başlayıb.

Rabitə sektorundakı ən yaxın adamlarının qandallanması yaxın günlərdə Ə.Abbasova da eyni maddələrlə-vəzifə saxtakarlığı, külli miqdarda dövlət əmlakını mənimsəmə, külli miqdarda rüşvət alma ittihamlarının veriləcəyini göstərir. Ekspertlərə görə, Əli Abbasovun taleyi onun istintaqla nə dərəcədə səmimi əməkdaşlıq edib-etməyəcəyindən də asılı olacaq.

### “Bakutel-2015"in əksər təşkilatçıları həbs edilib, sərgini kim keçirəcək?

Rabitə sektorunda sensasion həbslər və nazirin işdən çıxarılması RYTN dəstəyi və təşkilatçılığı ilə 2-5 dekabr tarixlərində baş tutacaq “Bakutel-2015" 21-ci beynəlxalq sərgi-konfransına hazırlıq ərəfəsi baş verir. "Bakutel-2015" sərgi-konfransının təşkilatçılığını edəcək böyük bir heyət-nazirliyin aparat rəhbəri Vidadi Zeynalov, “AzİnTelekom” MMC-nin baş direktoru Cəlil Cəfərov, “Azərpoçt” MMC-nin baş direktoru Qəmbər Bəybalayev, “Optik Rabitə, Tikinti və Quraşdırma” MMC-nin direktoru Namazalı Məmmədov həbsdədir, nazir isə hələ təyin edilməyib. Bakı Ekspo Mərkəzində keçiriləcək sərgiyə həmişə maraq böyük olub və çoxsaylı qonaqları ilə yadda qalıb. Tədbirin baş tutacağı, yoxsa ertələnəcəyi hələ bilinmir.

Hər halda, gələn qonaqları Bakı İstintaq Təcridxanasına aparmazlar...

❑ **“Yeni Müsavat”**



Vaqif Novruzov

## “Eldar Mahmudova milli qəhrəman adı verilməsi yaxşı olardı...”

### Sabiq daxil işlər nazirinin üç il öncəki müsahibəsi gündəmə yenidən qayıdıb; Vaqif Novruzov: “O, aristokrat ailədən idi”

**Azərbaycanın keçmiş daxili işlər naziri Vaqif Novruzovun “Yeni Müsavat”a 2012-ci ilin 14 martında verdiyi geniş müsahibə bugünlərdə yenidən gündəm olub. Müsahibə sosial şəbəkələrdə geniş şəkildə paylaşılır.**

Müsahibənin üç ildən sonra aktuallaşmasına səbəb istiqlalçı deputatın hazırda “MTN işi” ətrafında gedən proseslərdə adları daha çox hallanan sabiq nazir Eldar Mahmudov, nazir müavini Hilal Əsədov barəsində müsahibədə sensasion fikirlər səsləndirməsidir. V.Novruzov Nərimanov Rayon Polis İdarəsində E.Mahmudova birlikdə işlədiyini, onun rəisi olduğunu, sonralar onu Baş İdarəyə rəis təyin etdiyini bildirmişdi. Eyni zamanda milli təhlükəsizlik nazirinin sabiq müavini işləyən Hilal Əsədovu da Nərimanov Rayon Polis İdarəsinə rəis təyin etdiyini söyləmişdi.

Sabiq daxili işlər nazirinin geniş müsahibəsindən oxucularımız üçün maraqlı olan hissəni təqdim edirik: “Eldar Mahmudov baş leytenant olaraq Nərimanov Rayon Polis İdarəsində işləyirdi. Mən də rəis idim. Eldar Mahmudov düz 10 il həmin rayonda işlədi. Ona dəstək verməyim isə özünün haqq etdiyi dəstək idi. Çünki o, gənc kadr kimi çox bacarıqlı, peşəkar, işinin öhdəsindən çox yüksək səviyyədə gələn polis zabiti idi. Eldar Mahmudov aristokrat ailədən idi. Atası çox səviyyəli alim idi. Eldarın işə münasibəti, bacarığı yüksək olduğundan, onun irəli çəkilməsini labüd edirdi. Əməliyyat işini idarə eləmək hər polis işçisinin yaxşı bacardığı məsələ deyil. Eldar bu işi çox yüksək səviyyədə bacarırdı. Bütün bunlara görə mənim bir rəis olaraq belə bir kadra dəstək verməyim təbii idi. Mən nazir olanda Eldar Mahmudovu kollegiyaya üzv seçdim. Baş İdarəyə rəis təyin elədim. Bu adam bacarığı ilə bunlara nail olurdu. İndiki milli təhlükəsizlik nazirinin müavini Hilal Əsədov da mənim rəis olduğum 6-cı İdarənin işçisi idi. Mən nazir olanda Hilalı Nərimanov Rayon Polis İdarəsinə rəis təyin elədim. Çünki onun da bacarığı yüksək səviyyədə idi. İnanın ki, nazir olduğu üçün demirəm, əvvəldən onun işinə, xidmətinə birbaşa bələd olan şəxs kimi deyirəm ki, Eldar Mahmudova milli qəhrəman adı verilməsi yaxşı olardı. Ona bu ad çoxdan yaraşır”.

Göründüyü kimi, sabiq daxili işlər naziri hazırda ölkə ictimaiyyətinin bir nömrəli gündəmində olan, həbs ediləcəyi ehtimal olunan Mahmudovun milli qəhrəman adını alması üçün diqqətçəkən mesajlar verib. Maraqlıdır, indi də V.Novruzov bu fikirdədir?

❑ **Cavanşir ABBASLI**




# General Akif Çovdarov təcridxanada "burjuy" ola bilmədi

## Adi kameraya salınan sabiq idarə rəisinin yaxın adamı da qandallandı; Eldar Mahmudov barəsində yeni xəbərlər və ittihamlar

**MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbs edilən sabiq rəisi, general-mayor Akif Çovdarov Kürdəxanıdakı 1 saylı istintaq təcridxanasına köçürülüb. Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı rəsmi mənbələrdən məlumat daxil olub.**

"Akif Çovdarov Bakı İstintaq Təcridxanasının korpusundakı ümumi kamerada saxlanır. Bu kamera hüquq-mühafizə orqanları əməkdaşları üçün nəzərdə tutulub və orada heç bir imtiyaz yoxdur. Çovdarovla eyni kamerada daha bir məhkum saxlanır" deyə, mənbə bildirib. Hüquq-mühafizə orqanlarının əməkdaşları general Akif Çovdarovun cəlladlarından birini MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi Səlim Məmmədovu da saxlayıb.

Hüquq-mühafizə orqanlarındakı rəsmi mənbələrdən sayta verilən məlumata görə, Səlim Məmmədovun evində axtarış aparılıb, onun özü isə nəzarətə götürülüb.

Çovdarovun ikinci cəlladına - polkovnik-leytenant Vüqar Muxtarova gəlincə isə hazırda onun da saxlanması üçün tədbirlər görülür.

**MTN-in daha bir şöbə rəisi işdən çıxarıldı**

Milli təhlükəsizlik nazirinin 1-ci müavini, nazir səlahiyyətərini icra edən Mədət Quliyevin əmri ilə nazirliyin daha bir şöbə rəisi, polkovnik-leytenant Rəşad Əmircan oğlu Əmircanov vəzifəsindən kənarlaşdırılıb. Bəzi KİV-lərin yazdığına görə, R.Əmircanov Akif Çovdarovun kürəkənidir. Yenə həmin yazılanlara görə, Rəşad Əmircanov əvvəllər Xüsusi Dövlət Mühafizə Xidmətində işləyib, Akif Çovdarov Milli Təhlükəsizlik Nazirliyində idarə rəisi təyin edildikdən sonra MTN-ə şöbə rəisi gətirilib.

Avopa.info-ya daxil olan məlumata görə isə Baş Prokurorluq Milli Antikorrupsiya İdarəsi Rəşad Əmircanovun Badamdardakı villasında və Bakıdakı başqa evlərində də axtarışlar aparıb.

Rəşad Əmircanova məxsus Badamdardakı 1 milyon dollarlıq villa möhürlənib. Hüquq-mühafizə orqanları polkovnik-leytenant Rəşad Əmircanovun Akif Çovdarovun təşkil etdiyi gizli həbsxanalar və müxtəlif cinayət əməllərində iştirakının olduğu təxmin edir.



Eldar Mahmudov

Rəşad Əmircanov 1993-1996-cı illərdə Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsi sədrinin birinci müavini vəzifəsini tutmuş Əmircan Əmircanovun kiçik oğludur.

**Rektor MTN generalı ilə şərikli bankı olması xəbərindən danışdı**

"Muğanbank"ın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla "Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyevin şərikli müəssisəsi olduğu barədə məlumat yayıb.

**Milli Məclisin deputatı, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev isə modern.az-a açıqlamasında bildirib ki, "Muğanbank" onun üçün kənar bankdır.**

"Bankın saytında ona kimlərin rəhbərlik etdiyi yazılıb. Orada mənim adım yoxdur. Odlar Yurdu Universitetinin bank hesabına gəldikdə, bu, "Muğanbank" və ya başqa banklarda ola bilər. Bankın mənim Eldar Mahmudovla şərikli müəssisəm olmağı haqqında yazılanlar yalan informasiyadır. Kimlərsə yalan məmulatlar yaymaqla məşğuldurlar. Heç kimin yalan informasiya verməyə mənəvi haqqı yoxdur. Bir az diqqətli və ehtiyatlı olmaq lazımdır".

**"Eldar Mahmudov nanəcib adamdır"**

**Prezidentin sərəncamı ilə ləğv olunan Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin (ADXDG) sabiq rəisi Aydın Bəşirov sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifəsindən azad edilməsinə münasibət bildirib. Hazırda istintaqı davam edən "MTN işi" ilə bağlı məsələyə də toxunan A.Bəşirov xəzərnews.az-a bunları deyib:** "Eldar Mahmudov barəsində heç danışmaq belə istəmirəm. O, nanəcib adamdır. Eldar Mahmudov bütün Azərbaycanı biabır edib. Prezidentə qarşı bu cür hərəkətlər etmək insanlığa sığmır. Buna görə Allah onların hər birinin gec-tez cəzasını verəcək".

**Mahmudovun xanımı işə çıxmır**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) katibi Tahirə Mahmudova səhhəti ilə əlaqədar işə çıxmır.

Bu barədə "Report"a AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nazim Ağamirov bildirib.

"O, hazırda məzuniyyətdədir", - AHİK sözçüsü əlavə edib.

Qeyd edək ki, Tahirə Mahmudova sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun həyat yoldaşıdır.

T.Mahmudova 1960-cı ildə anadan olub. 1982-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Ali təhsilini başa vurduqdan sonra "Dənizneftqazlayihə" Elmi Tədqiqat və Layihə İnstitutunda baş mühəndis, 1987-1994-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda baş mühəndis, 1994-2000-ci illərdə "Spektr" kiçik müəssisəsində aparıcı konstruktor, 2001-2003-cü illərdə "Səda" firmasında beynəlxalq iqtisadiyyat məsələləri üzrə məsləhətçi, 2003-2007-ci illərdə isə "AGBank"da məsləhətçi vəzifələrində çalışıb.

2007-ci ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında katib vəzifəsində çalışır. AHİK-in Məclis və İcraiyyə Komitəsinin üzvüdür.

❑ **"Yeni Müsavat"**

# Qoluna qandal vurulan məşhurlar danışdı

**Son günlər medianın olay hesab etdiyi fotolardan biri də, heç şübhəsiz, MTN generalı Akif Çovdarovun qoluna qandal vurulduğu anda çəkilmiş şəklidir. Çovdarovun bundan öncə 2007-ci ildə, 6-cı mikrorayon ərazisində yerləşən Zeytun bağında "Azadlıq" qəzetinin əməkdaşı Aqil Xəlil tərəfindən fotosu çəkilmişdi. Sonuncu foto isə A.Çovdarovun mətbuat səhifələrindəki ikinci və hələ ki sonuncu fotosudur.**

Oxucular xatırlayar: birincidə fotoaparatı işə salan şəxs vəhşicəsinə döyülmüş, daha sonra qurama bir ssenari ilə bıçaqlanmışdı. Bu dəfə isə A.Çovdarov qandallandığı üçün onun şəklini çəkən şəxsə qarşı hər hansı cəza tədbiri görə bilmədi. Amma bizim mövzumuz bu deyil. Biz daha çox qolu qandallanan zaman şəxsin psixoloji durumunu öyrənmək istədik. Və təbii ki, müzakirə obyektimiz sıradan biriləri yox, tanınmışlardır. O tanınmışlar ki, zamanında yüksək vəzifələr tutublar, dövlət tədbirlərində iştirak ediblər, hörmət-izzət görüblər. Onlar üçün bu psixologiyanın ağırlığı yəqin ki, heç nə ilə müqayisə oluna bilməz.

Bu günə qədər dünya tarixi də qoluna qandal vurulan məşhurları çox görüb.



**İqbal Ağazadə:** "Bunun xoş hiss olduğunu və normal qarşılandığını heç kim söyləyə bilməz"



**Pənah Hüseyn:** "Şəxsən mənimçün bunun ağırlığı olmadı"

Bəzi hallarda həmin şəxslərin qolu qandallı fotoları törətdikləri əməldən və ümumən situasiyadakı incəliklərdən asılı olaraq, ibrəti-aləm olsun deyə mediaya ötürülüb. Başqa hallarda isə heç kimin xəbəri olmadan, arxa qapılardan, qaranlığın düşməsini gözləyərək bu əməliyyatı həyata keçiriblər.

**Bu günədək yolu türmədən keçmiş, qoluna qandal vurulmuş bəzi tanınmışlardan bu hissin ağırlığını, yükünü soruşduq. Ümid Partiyasının sədri İqbal Ağazadə belə taleyi yaşayanlardandır. Onun sözlərinə görə, bunun xoş hiss olduğunu və normal qarşılandığını heç kim söyləyə bilməz. Müsahibimiz hesab edir ki, hətta ən qatı cinayət törətmiş və bunu etiraf edən adam belə bunu qəbul etmir:** "Çünki bu, ağır psixoloji basqıdır. Xüsusən də cəmiyyətdə müəyyən yeri və vəzifəsi olmuş adamlar üçün bu, ağır zərbədir - insanlar qarşısında və özünün içində. Çalışaq ki, heç kim cinayət törətməsin. Amma cəmiyyət varsa, cinayət var. Cinayət varsa, cəzası da var, qandallanma da olacaq. Amma heç kimə bunu yaşamağı arzulamazdım. Hər kəsin əməlləri var və ona uyğun cavabı da verilir. Pisə pis, yaxşıya yaxşı".

**Eks-baş nazir Pənah Hüseyn də 2003-cü il hadisələrində bu mərhələdən keçib. Müsahibimizin sözlərinə görə, bu, qanunun tələb etdiyi anlarda bir prosedur məsələsidir. Pənah bəy hesab edir ki, bəzən məhkəmədə bunu qanunsuz tətbiq ediblər:** "Bu yolverilməzdir. Akif Çovdarovun qandallanmasının bir neçə səbəbi var. Bir çoxları onun həbsinə inanmırdı. Ola bilər ki, durumun kifayət qədər ciddi olduğunu çatdırmaq üçün bu foto çəkdirilib".

**P.Hüseyn konkret özünə gəlincə isə bildirdi ki, onun üçün bu anın xüsusi yadda qalması olmayıb: "Şəxsən mənim üçün bunun ağırlığı olmadı".**

❑ **Sevinc TELMANQIZI**

# "40 gün oldu 11 il, hanı qatillər?"

## Elmar Hüseynovun bacısı Akif Çovdarovun həbsi ilə qardaşının qətlinin açılacağına inanmır

**Bugünlərdə MTN generalı Akif Çovdarovun həbsi "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətli mövzusunu yenidən gündəmə gətirdi. Jurnalın eks-əməkdaşı, hazırda haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev bu qətldə Akif Çovdarovun rolu olduğunu bir daha xatırlatdı. Baş redaktor bunu öz məhkəməsində də detallı danışmışdı.**
**"Yeni Müsavat" isə bu gəlişmənin ardınca E.Hüseynovun ailə üzvlərindən yeganə mümkün müsahiblə, bacısı Esmira Hüseynova ilə danışdı. Atasının dünyasını dəyişməsi, həyat yoldaşının isə Norveçə mühacirət edəndən sonra media ilə bütün əlaqələri kəsməsi bizi bacısı ilə bu qətlin istintaqı, son gəlişmələrdən sonra qətlin üstünün açılacağına artan ümidlər barədə danışmağa sövq etdi.**




***- Esmira xanım, öncə son olaylardan başlayaq. Akif Çovdarovun həbsindən sonra mediada Elmar Hüseynov mövzusu da yenidən aktuallaşıb.***

- Mənim heç xəbərim də yox idi. Evdar qadınam, işdən də çıxmışam. Ümumiyyətlə, siyasətlə maraqlanmıram. Siz deyəndən sonra xəbərim oldu.

***- İndi mediada və sosial şəbəkələrdə əsas yayılan fikir bu şəxsin tutulmasından sonra Elmar Hüseynovun qətlinin açılacağıdır. Çünki hələ məhkəməsində "Monitor" jurnalının əməkdaşı olmuş Eynulla Fətullayev bu qətldə Akif Çovdarovun əli olduğunu demişdi. Sizdə necə, qətlin açılacağı ilə bağlı ümidlər varmı?***

- Xeyr, yoxdur. Azərbaycanda bu, mümkündürmü? İnanmıram, ümidim də yoxdur. Çünki bura Azərbaycandır.

***- Hansı halda qətlin üstünün açılacağına inanırsız?***

- Bura Avropa, Amerika olsaydı, bəlkə də ümidim olardı. Öz adımdan bu 10 ildə heç vaxt ümidim də olmayıb.

***- Rəhmətlik atanız həmişə inanırdı ki, Elmarın qatilləri və bu qətlin sifarişçiləri tapılacaq.***

- Bəli, o deyirdi ki, mənə söz verilib. Ona qətldən sonrakı günlərdə 40 mərasiminə qədər bunun üstünün açılacağı deyilmişdi. 40 gün oldu 11 il. Hanı qatillər?

***- Elmarın atası rəhmətə gedib, xanımı ölkədə yoxdur. Ailəsi adına ancaq siz və qardaşınız qalmısız. Baş verən son gəlişmələrdən sonra ailə adından yenidən qətlin açılması üçün dövlət başçısına, istintaq orqanlarına, elə Milli Təhlükəsizlik Nazirliyinə müraciət edə bilərsizmi?***

- Xeyr. Axı bayaq da dedim. Açılan olsaydı, bu 11 ildə açılardı. Bu, kiminsə vəzifədə olmasına, ya da çıxarılmasına görə deyil ki. Nə mənası var? Hakimiyyət dəyişməyib axı. Əsas budur. Nə bilim, bəlkə kimdəsə nəsə ümid yaranır, amma məndə yox.

***- Elmarın Norveçdə yaşayan xanımı Ruşaniyyə Hüseynovadan, oğlu Aslandan xəbəriniz varmı? Əlaqə yaradırlarmı?***

- Yox, Ruşaniyyə ölkəni tərk edən gündən bizimlə heç bir əlaqə saxlamayıb. Biz heç bilmirik ki, Aslan indi necədir, nə boydadır, necə böyüyür. Anası bizimlə bütün əlaqələri kəsib, tamamən məlumatsızıq. Amma hərdən Ruşaniyyəgil tərəfdən eşidirik ki, uşaq məktəbə gedir, özü də çox yaxşı oxuyur. Anası isə işə girib və işləyir. Bundan başqa heç bir məlumatımız yoxdur. Amma mənim bildiyimə görə, Ruşaniyyənin anası, atası, bacı-qardaşı bir neçə dəfə Norveçdə olublar və Aslanı görə biliblər. Bizimlə isə bütün kontaktları kəsdiyi üçün heç bilmirik ki, Elmarın yadigarı necədir, necə böyüyüb, kimə oxşayır. Bizə də maraqlıdır ki, ona atası ilə bağlı danışılıbmı, bilirmi ki, atası necə jurnalist olub, necə öldürülüb. Ən böyük arzularımdan biri 12 yaşına çatmış qardaşım oğlu Aslanı görə bilməkdir. İnşallah, xaraktercə atasına bənzəyər. İnanmaq istəyirəm ki, əvvəl-axır bizi soruşacaq, atasının qəbrini ziyarət edəcək, gəlib hamını görəcək.

***- Aslanın heç şəklini də görməmisiz? Yadınızda ancaq burdan gedəndə, körpə vaxtı olduğu kimi qalıb?***

- Şəkli bizdə var. 3-4 yaşı var o şəkli çəkdirəndə. Bir dəfə atama vermişdilər onun şəklini. Ondan sonra nə bir əlaqə, nə bir kontakt. Biz onunla heç danışmamışıq, siz inanırsız? Bilmirik ki, qardaşımın uşağının səsi, üzü-gözü necədir, necə danışır...

***- Yadımdadır ki, mərhum Sabir kişi nəvəsi üçün bank hesabı açdığını və hər ay ora pul köçürdüyünü deyirdi. "18 yaşına çatsın, o puldan istifadə edəcək"- müsahibəsindəki bu sözlərini xatırlayıram.***

- Atam o pulu göndərmişdi ona. Aslanın adına açdığı bank hesabını bağladı, o pulu da, aldığı hədiyyələri də burdan gedən bir azərbaycanlı vasitəsilə ona göndərdi. 1000 dollara yaxın pul idi, səhv etmirəmsə. Dollar yığırdı atam o vaxt. O pulu göndərəndə Aslanın 5 yaşı olardı. Atam dedi ki, Ruşaniyyə bizimlə heç bir əlaqə saxlamırsa, o pulu nəyə yığıb saxlayım? Bankda hesabı bağladı. Jurnalistlərdən kimsə gedirdi, səhv etmirəmsə. Onlarla yolladı həmin pulu.

### "Elmar deyirdi ki, mühacirətə getsəm, orda mənə ikinci sort insan kimi baxacaqlar"

***- Sizin yolunuz nə zamansa Norveçə düşə bilərmi? Bütün hallarda qardaşınızın yeganə övladını görmək istəyərsiz yəqin.***

- Mən istəyərəm, amma inanmıram ki, anası buna imkan versin. Heç bir əlaqə yoxdur, inanırsız? İstəsəydi, skaypla tapardı. Mən onu nə qədər skaypla axtardım, amma tapa bilmədim. Bütün sosial şəbəkələrdə də axtardım. İstəyirdim heç olmasa qardaşımın uşağını görə bilim. Necə böyüyür. Nə özünü, nə də ailə üzvlərini sosial şəbəkədə tapa bilmədim. Nəyə görə belə etdiyini isə bilmirəm. Çünki bu insanın hərəkətlərini anlamıram. İlk gündən həm də.

***- Elmarın qəbrini tez-tez ziyarət edirsiz?***

- Əlbəttə. Ziyarət də edirik, onun da, atamın da qəbrinə nəzarət edirik. Bilirsiz, atamla onun qəbri yanaşıdır. Mən adətən səhərlər gedirəm. Uşaqlarım balacadır deyə, bir az işlərimi məhdudlaşdırmışam. Yoldaşım hər ay gedir, ora nəzarət edən adama pul ödəyir ki, qəbirlərə baxsın.

***- Evinizdə Elmar Hüseynova aid bir guşə varmı?***

- Var təbii ki. Onun fotoları, yazıları, jurnalları. Amma bunlar bizə özəldir. Bunun mətbuata çıxarılmasını istəmirik. Qardaşımın xatirəsini ataram heç? Özü də o cür qardaşın. O gün yoldaşımla danışanda dedim ki, pis qardaş olsaydı, deyərdim ki, dərd itir gedir, silinir yaddaşdan. Amma mənim anam da Elmar kimi idi. Hamıya yaxşılıq edən, gözəl insan idi. Demirəm ki, mələk idi. Bu dünyada heç kim mələk deyil. Amma təmiz insanlar idi. Onlar pisliyi başa düşmürdülər ki, necə olar, kimsə pislik etsin biləkdən? Elmar özü o qədər təmiz idi ki, insanları tanımırdı. O elə hamını öz arşını ilə ölçürdü. Ağlına da gəlmirdi ki, kimsə qəsdən pislik edə bilər. Ona görə də anam da, qardaşım da heç yadımdan çıxmır.

***- Müsahibələrinizdən birində oxumuşdum ki, qardaşınızın yazılarına görə hər zaman qorxmusuz.***

- Bəli, həmişə oxuyurdum və qorxurdum. Amma məndən də çox anam qorxurdu. Bir dəfə müsahibəmdə də demişəm ki, anam onu lap çox istəyirdi. Yaxşı ki, ölümünü görmədi. Araları bir il bir ay çəkdi. Həmişə deyirdi ki, tərk elə Azərbaycanı, çıx get bu ölkədən, burda yaşama. Demirdi yazma, deyirdi, köç burdan, sənə yazmağa, əməlli-başlı yaşamağa imkan verməyəcəklər. O da deyirdi ki, mən sizi ata bilmirəm. Həm də deyirdi ki, hara köçsəm, orda ikinci sort olacağam, immiqrant kimi. "Orda özümü birinci sort adam kimi hiss edə bilməyəcəyəm. Orda özüm kimi ola bilməyəcəm, orda ancaq nəvələrim özlərini doğma hiss edə bilərlər" deyirdi. Ruşaniyyə xanım isə həmişə köçmək istəyirdi. Həmişə Elmara deyirdi ki, köçək. Bir dəfə Elmar əsəbiləşib dedi ki, ancaq meyitimin üstündən keçib gedərsən. Elə bil hiss edirdi hər şeyi.

❑ **Sevinc TELMANQIZI**

# "Nadzor"un üzünü güldürən generallar...



**Elşad MƏMMƏDLİ**
elshad1978@mail.ru

**Düz bir aydır ölkəmizdə növbəti dəfə tutatut başlayıb. Amma bu dəfə müxalifətçiləri, gənclər təşkilatlarının üzvlərini, jurnalistləri deyil, MTN generallarını, polkovniklərini, digər nazirliklərin rəhbər şəxslərini qandallayırlar. Bunlar elə həmin şəxslərdir ki, uzun illər xalqa, sahibkarlara, xüsusilə demokratik düşərgəyə, jurnalistlərə qənim kəsilmişdilər. İndi həmin iri ranqlı, yüksək rütbəli məmurlar əndazəni aşdıqlarına, belə desək, cızıqdan çıxdıqlarına, özlərini hakimi-mütləq kimi apardıqlarına, dövləti təhdid etdiklərinə görə həbs olunublar.**

Bir sıra məmurlara zamanında "dur" deyilməyəndə həmin vəzifəli şəxsi qandalla, həbslə saxlamaq olur. Düzdür, biz şahidi olmaqdayıq ki, belələrini enində-sonunda damlayırlar. Amma buna qədər o məxluqatlar yüzlərlə insanın evini yıxır, dövlətə ağır zərbələr vururlar.

Odur ki, heç olmasa bu gündən sonra idarəetmə siyasəti dəyişməlidir: ictimai nəzarətin güclənməsinə, mətbuat azadlığına imkan verilməlidir, məmurlardan edilən şikayətlər ciddi araşdırılmalıdır, vəzifə təyinatı meyarları kökündən dəyişməlidir, vəzifəli şəxslərin bizneslə məşğul olması cinayət əməli sayılmalıdır, dərhal işdən azad edilməlidir. Ən əsası, məhkəmələrin tam müstəqilliyinə nail olunmalıdır. Bunlar olmayınca Akif Çovdarovu tutacaqlar, üstündən bir neçə il keçəcək, ortaya növbəti akifçovdarovkimilər çıxacaq. Necə ki, 2005-ci ildə banda başçısı Hacı Məmmədovu tutdular, daha sonra ortaya daha təhlükəli banda - akifkimilər, eldarkimilər çıxdı. Özü daha ciddi təhlükəli mütəşəkkil cinayətkar şəbəkə halında...

Əlbəttə, bu xəmir hələ çox su aparacaq, istintaq müddətində, məhkəmə zamanı, hətta ondan sonralar da tükürpədən faktlar ortaya çıxacaq. Hər kəs bundan şoka düşəcək, bir çoxları isə necə salamat qaldığına görə Allaha şükür edəcək...

Əlbəttə, xalqı çapıb-talayan, dövlətin içində cinayətkar şəbəkə yaradan bu quldurların həbsi hər kəsi sevindirir. Hətta hakimiyyətə münasibətdə ən sərt mövqedə olan adamlar belə ölkə başçısının həyata keçirdiyi bu təmizləmə işlərinə görə ona minnətdarlıq edirlər.

Uzun illər ərzində talançılıq hesabına milyonçu olmuş bu kəslərin tutulmasına sevinməmək mümkünsüzdür. İndi onların topladıqları sərvətləri, mülkləri, biznesləri qeyri-rəsmi və daha sonra müsadirə olunmaq yolu ilə əllərindən alacaqlar, banklarda, seyflərdə saxladıqları nağd pulları isə təcridxana yollarında - "nadzor"lara, müstəntiqlərə, vəkillərə, hüquqi nümayəndələrə xərclənəcək.

Həbsxana qaydalarına bələd olan bir dostumuz deyir ki, müxalifətçilərin, kasıbların həbsi "nadzor"ların, vəkillərin, bəzi müstəntiqlərin ürəyincə deyil. Kasıbın nəyi var ki, yoluğa da verə? Amma generallar, xalqı çapıb-talayıb həbsə düşənlər onların "gözünün işığıdır". Çünki həmin adamları "qaz kimi" yolmaq olur. Məsələn, heç bir vəkil sidq ürəklə, az pulla belələrini müdafiə etməz, gərək vəkilə azı 20 min ödəsinlər ki, bunların işinə çıxmağa razı olsunlar...

Həmçinin, heç şübhəsiz ki, bir vaxtlar Akifi görəndə rəngi qaçan "nadzor"lar təcridxanada onu gəzinti zamanı açıq havada 10 dəqiqə artıq saxlamaq üçün "hesab" alacaqlar. Və əcəb edəcəklər. Bu adamlar çoxlarına qan uddurublar. Sahibkarların başına torba keçirib zirzəmidə ac-susuz, havasız saxlayanda bu günü düşünmürdülərsə, indi real olaraq yaşasınlar, görsünlər əzab nədir. Qoy hava almaq üçün "qussunlar".

Müstəntiq də istintaqın sonunda işə qanunun imkan verdiyi "yüngülləşdirici halları" əlavə etmək üçün güman ki, bu talançıların taladıqlarından bir az "yüngülləşdirəcək".

Daha sonra həmin generallar, digər vəzifəlilər "zona" gedəcək, komediya ondan sonra başlayacaq... Beləcə, onlar qaşıq-qaşıq yığdıqlarını çömçə ilə paylayacaqlar. Onlardan alınanlar isə halal sayılır, "oğrudan oğruya haladır" prinsipi hələ də işlək vəziyyətdədir...

Necə deyərlər, hayla gələn, küylə gedər...

Adam gərək özünü itirməyə, özünü itirdisə, adamlıqdan çıxdısa, İlahi ədalət mütləq öz yerini tutacaq...

YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

# Böyük dəyişiklik

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən internetdə bir videoya baxdım: yol polisi deputatxana üzvü Rafael Hüseynovu avtomobillə hərəkət qaydalarını pozduğu üçün cərimə edirdi. Əla kadr idi. Biz yavaş-yavaş Avropaya, sivil dünyaya doğru addımlayırıq. Təklif edirəm daxili işlər naziri həmin polisə rəsmi təşəkkür versin. Qanun qarşısında hamı bərabər olmalıdır. Bu gedişlə mən qorxuram sabah Hacıbala Abutalıbovu metroda işə gedən görək. Artur Rasizadə velosiped sürsün. Ramiz müəllim Fəvvarələr bağında gəzişsin.**

Adam bir az da üşənir. Bu qədər demokratiya bizdə anarxiyaya səbəb olar. Həmçinin Artur müəllim velosipeddə adamın qabağına çıxsa adam qorxudan sarılığa tutular. Çox gözlənilməzdir. Hərçənd yeni deyil. Bundan qabaq MTN-in birinci müavini qoyulan Mədət müəllimin velosipeddə şəkli yayılmışdı.

Gördüyümüz kimi, hakimiyyət hər gün nəsə edir, hər gün kimisə tuturlar, əmlakını müsadirə edirlər. Dağıdılan villalar, işdən qovulan yeznə-bacanaqlar, türmədə infarkt olan generallar, xəstəxanaya düşən nazir arvadları... Hakimiyyət dəhlizlərində yel vurub, yengələr oynayır. Yapistlər neftdən sonrakı dövrə hazırlaşırlar, özünü qoruma instinkti yüksək sürətlə işləyir. Təəssüf ki, biz bu cür özünüqoruma mexanizmlərini, böhranlara çevik reaksiyanı nə cəmiyyətimizdə, nə müxalifət adlanan kəsimimizdə görmüşük. Əksinə, həmişə proseslərin arxasınca sürünüblər. Kaş iqtidarın böhran zamanı hiss elədiyi narahatlığın onda biri cəmiyyətimizdə olaydı. Yoxsa həmişə yatırıq. Bəzilərimizi hətta təpikləyəndə də oyanmır. Sabir demişkən, sanarsan ölübdür.

Bayaq söz açdığım videoya qayıtsam, orda bir detal məni narahat elədi, hesab edirəm islahatlarımızın gurultulu şəlaləsi fonunda buna diqqət yetirilməli, günahkarlar cəzalanmalıdır. Yol polisi protokol yazarkən deputat Rafael Hüseynovun yanında bir nəfər kostyumlu kişi vardı, deputat çıxıb gedəndən sonra o, polisə deyirdi: "Mən bu kişini deputat seçmişəm. Tabeliyimdə 70-80 məntəqə var. Dairə seçki komissiyasının sədriyəm". Təxminən bu tip sözlərlə özünün "əhəmiyyətini" polisə göstərmək istəyirdi, alınmadı. Ancaq maraqlıdır: deputatxana seçkisi şousu təzə bitmişkən, daha doğrusu, hələ məclis toplanmadığı üçün bitməmiş sayılırkən bir DSK sədri həmin dairənin deputatının maşınında nə qayırırdı? Üstəlik, "mən onu seçmişəm" nə deməkdir? Bəs xalqın səsi hara gedib? Hesab edirəm əlaqədar orqanlar həmin DSK sədrinin villası ilə maraqlanmalıdır.

Yaxşı sökülməli villalar hələ qarşıdadır. Nazim Hikmət demişkən, "gözəl günlər görəcəyiz, cocuqlar". Yeniləşən Azərbaycanımızın bir əlamətini Ədalət müəllim adlı oxucumuz yazıb göndərmişdir. Açığı, mən jurnalist olsam da buna diqqət etməmişdim, halbuki möhtəşəm yenilikdir. Bəlkə də dünya dövlətləri başçılarının Türkiyədəki zirvə toplantısı məhz bu yenilik üzündən baş tutmuşdur. Uzun sözün qısası, gəlin Ədalət müəllimin məktubundakı şok informasiyanı birlikdə oxuyaq: "Zamin bəy, salam! Sizin bütün yazılarınızı oxuyuram. Seçkilərlə bağlı toxunduğunuz problemlər hamını düşündürməli olan məsələlərdir. Ancaq builki seçkilərdə olan bir böyük yenilikdən nədənsə yazmırsınız. Həmişə tənqid etmək olmaz, əldə olunan nailiyyətlərdən də yazmaq lazımdır. Bir böyük uğuru sizin yadınıza salmaq istəyirəm. 3 çağırış eyni dairədən seçilən Gövhər xanımla Zahid Orucun seçildikləri dairələr nəhayət ki, qarşılıqlı olaraq dəyişdirildi. İndi Gövhər xanım Bərdənin şəhər, Zahid müəllim isə kənd əhalisinə vəkillik edəcəklər".

Doğrudan da heyrətamizdir.

# Avropanın hədəf nöqtəsi - niyə məhz Fransa?

## Qabil Hüseynli: "Bu ölkədə İslam tərəfdarlarının mövqeyi güclüdür"




**Noyabrın 13-də Parisdə törədilən məlum terror aktı bir məsələni yenidən gündəmə gətirdi: niyə Avropa hədəf seçilərkən, ilk göz önünə gələn ölkə Fransa olur? Bu, tarixdə də belə olub, indinin özündə də...**

"Niyə məhz Fransa" sualı isə hələ də cavabsız qalır. Tarixə nəzər yetirsək, hər şey olduğu kimi üzə çıxır. Təsadüfi deyil ki, görkəmli yazıçımız Mirzə Fətəli Axundovun XIX əsrdə yazdığı "Müsyö Jordan" ("Dərviş Parisi partladır" filmi) əsərində də partlayış olacaq ölkə kimi Fransanı seçməsi bugünkü baxış acısından bəzi sualların cavabıdır. Deməli, keçmişdə də Fransa daim hədəf nöqtəsi olan bir ölkə kimi tanınıb. Bu ölkəni təhlükə mənbəyinə çevirən nədir?

Doğrudur, hazırda Fransa bir sıra terror qruplaşmalarına qarşı aparılan əməliyyatlarda birbaşa iştirak edən ölkədir. Bu baxımdan Paris terrorunu bununla əlaqələndirənlər çoxluq təşkil edirlər. Amma terrora qarşı Avropa dövlətlərinin yaratdıqları koalisiyaların tərkibi təkcə Fransadan ibarət deyil...

**Politoloq Qabil Hüseynli** Fransanın daim hədəf nöqtəsi olmasına belə aydınlıq gətirdi: "Axundov "Müsyö Jordan" əsərində hədəf seçərkən 1848-51-ci illərdəki Böyük Fransa İnqilabını nəzərdə tuturdu. O vaxt bu inqilab Avropadakı bütün inqilablar üçün təkan oldu. Burjua demokratik inqilablarının başlanğıcını qoydu. Müasir dövrdə, xüsusilə XX və XXI əsrlərdə Fransanın paytaxtı Paris terrorçular üçün daim hədəf kimi seçilir. Bunun bir sıra səbəbləri var. Fransada millətçilik çox yüksək səviyyədə inkişaf edib. Fransa millətçiləri Avropadakı digər millətçilərdən daha radikal, daha antimüsəlman mövqeyində dayanan qruplaşmalardır. Yaxınlarda orada yerli hakimiyyət orqanlarına seçkilər keçiriləcək. Həmin seçkilərdə millətçilərin böyük zəfər qazanacaqları proqnozlaşdırılır. Çünki bu hadisələrin fonunda onların dedikləri buna imkan verir. Parisin qorxulu tərəflərindən biri də ondan ibarətdir ki, Fransanın müstəmləkə siyasəti apardığı dövrlərdə xeyli ərəb əsilli insanlar bu ölkəyə axışıblar. Burada hətta vətəndaşlıq hüququ alanlar da var. İkinci nəsil də vətəndaş olmağa imkan qazanıb. Parisin ətrafında elə yaşayış məntəqələri var ki, başdan-ayağa ərəblər məskunlaşıb. Ona görə də Fransada İslam tərəfdarlarının mövqeyi güclüdür. Orada qadınların hicabla ictimai yerlərdə görünmələri qanunla yasaq edilib. Bu onunla deyil ki, Fransa bu kimi halları sevmir. Sadəcə, İslamı unutmayan insanların onlar üçün təhlükə olduqlarını çoxdan başa düşüblər. Buna görə də həmin kəsimi intellektuallaşdırmağa, zərərsizləşdirməyə səy göstərirlər. Amma bu səylər bəhrə vermədi. Müəyyən qadağalar islamçılıq duyğularını daha da qaldırdı. Onlar təkcə mövcud rejimə qarşı deyil, eyni zamanda fransızlara qarşı nifrət bəsləməyə başladılar. Terrorçular bundan istifadə edərək, asanlıqla məqsədlərini həyata keçirməyi bacarırlar. Eyni zamanda fransız vətəndaşları olanlar içərisində zərərli baxışlarını yaymağı bacarırlar".

**Q.Hüseynli terrorda iştirak edənlərin əsillərinə də toxundu:** "Son terror hadisəsində iştirak edənlərin hamısı Suriya əsilli ərəblərdir. Amma hamısı da fransız vətəndaşıdır. Ərəblərin digər miqrantlara nisbətən çoxluq təşkil etmələri, fransızları daha yaxından tanımaları, planlarını həyata keçirməyə şərait yaradır. Bütün bunları nəzərə alaraq, demək mümkündür ki, İŞİD terrorçuları asanlıqla sığınacaq tapıblar. Terrorun başçıları üç nəfərdir. Bu şəxslər asanlıqla Fransaya gəlib-gediblər. Polisin diqqətindən yayınmağı da bacarıblar. Partlayıcıların hazırlanmasında, Parisə gətirilməsində Fransada yaşayan ərəb əsilli şəxslərin köməyindən istifadə ediblər. Çünki bu qədər silahı təyyarə ilə Fransaya gətirmək mümkün deyil. Prezident Fransua Ollandın özü də söylədi ki, yerli əhali də onlara hərtərəfli yardım göstərib. Bütün bunlar onu göstərir ki, Parisi terrorçular üçün əlverişli edən orada yaşayan ərəblərin çoxluğudur".

**Politoloq Fransanın bu təhlükələrdən qurtulma yollarından da danışdı:** "Fransızlar elə düşünürlər ki, bu təhlükələrin qarşısını almaq üçün müsəlman axınının qarşısını kəsmək lazımdır. Yeni məscidlərin tikilməsini qadağan ediblər. Yerli əhalinin içərisindəki müsəlmanlara qarşı nəzarət hesab edirəm ki, gücləndiriləcək. Qanunları pozanlar ölkədən dərhal çıxarılacaqlar. Fransaya bundan sonra miqrasiya məsələləri çətinləşdiriləcək. İnsanların buraya məlum yerlərdən asanlıqla daxil olmaları xeyli mürəkkəbləşəcək. Fransanın özünü qorumağa haqqı var. Bunun üçün lazım olan tədbirləri həyata keçirir. Ola bilsin ki, bundan sonra "Fransa fransızlar üçündür" şüarı daha çox həyata keçəcək".

❑ Cavanşir ABBASLI



## Rusiya təyyarəsini vuranı tapana 50 milyon dollar verəcək

**Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) Rusiyanın sərnişin təyyarəsinin Misirin Sinay yarımadasında partlayışına cəlb olunan terrorçuların tapılmasına kömək edəcək informasiyaya görə 50 milyon dollar mükafat təyin edib.**

Virtualaz.org "RİA-Novosti"-yə istinadən bildirir ki, bu barədə FTX-nin ictimai əlaqələr mərkəzindən bildirilib.

Qeyd edək ki, FTX-nin başçısı Aleksandr Bortnikov Rusiya təyyarəsinin terror aktının qurbanı olduğunu təsdiqləyib.

Onu da xatırladaq ki, "Koqalımavia" şirkətinə məxsus "Airbus 321" layneri oktyabrın 31-də Misirin Şarm-əl-Şeyx şəhərindən Sankt-Peterburqa uçarkən Sinay yarımadasının şimalında qəzaya uğrayıb. Təyyarənin göyərtəsində 217 sərnişin və 7 ekipaj üzvü olub. Onlardan heç biri sağ qalmayıb.

## Putin qisasa başladı: Suriyaya kütləvi zərbələr endirilir

**Rusiya qanadlı raketlərdən və uzaqmənzilli bombardmançı təyyarələrdən istifadə etməklə Suriyadakı hədəflərə çoxsaylı zərbələr endirib. Virtualaz.org saytı "Reuters"ə istinadən xəbər verir ki, bu barədə ABŞ administrasiyasının nümayəndəsi bildirib.**

Bu, Rusiyanın Suriya əməliyyatlarında uzaqmənzilli bombardmançıları tətbiq etməsinə dair ilk belə faktdır.

Agentlik əlavə edir ki, rəsmi Moskva bundan əvvəl Ağ Evlə yalnız raket hücumları barədə razılığa gəlməyib. Bu zaman Suriya üzərindən uçuşların təhlükəsizliyinə dair hazırda qüvvədə olan sazişə istinad olunurdu.

Bundan əvvəl "Le Monde" qəzeti xəbər vermişdi ki, Rusiya noyabrın 17-nə keçən gecə İŞİD-in paytaxtı sayılan Raqqa şəhərindəki hədəflərə qanadlı raketlərlə zərbələr endirmişdi. Qəzet raketlərin Aralıq dənizi istiqamətindən atıldığını yazırdı.

Rusiya İŞİD bazalarını bundan əvvəl - oktyabrın 7-də də qanadlı raketlərlə vurmuşdu. "Kalibr" kompleksinə aid 3M14 raketləri Xəzər donanmasının hərbi gəmilərindən buraxılmışdı. 26 raket İran və İraq əraziləri üzərindən keçməklə hədəfə dəymişdi.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

**Etnik-ərazi münaqişələri və işğalçılıq problemi beynəlxalq terrorizm kimi qlobal təhlükəsizliyə ən güclü təhdidlərdən biri olaraq qalır. Sözsüz ki, on illərdir həll edilməmiş qalan Dağlıq Qarabağ konflikti və son qoyulmayan erməni işğalı da o sıradadır.**

STRATFOR



# "5 rayon" məsələsi yenidən gündəmə qayıdır

Novruz Məmmədovun referendum açıqlaması diqqəti təzədən Dağlıq Qarabağın statusu məsələsinə yönəldib; "Stratfor"un iddiasına görə, Moskva ərazilərlə bağlı Bakı üçün lobbiçilik edir; **"kölgə kəşfiyyatı":** "Azərbaycanın hərbi yola əl atacağı həmişə gündəmdədir"...



Qarabağ probleminin həllinin bu xüsusda nə dərəcədə önəmli olduğunu Azərbaycan prezidenti İlham Əliyev Antalyada "Böyük iyirmiliy"in sammiti çərçivəsində etdiyi çıxışı zamanı dünyanın, G20 liderlərinin diqqətinə bir daha çatdırdı. Gec də olsa erməni işğalını aradan qaldırmağın və münaqişəyə dair BMT qətnamələrini yerinə yetirməyin zəruriliyini vurğuladı.

Bu çağırışlar ilk növbədə Rusiyaya ünvanlanıb. Çünki istəsək də, istəməsək də Qarabağ ixtilafının həllində hələ ki əsas söz sahibi Kreml olaraq qalır. Bunun bir səbəbi də Moskvanın satellit Ermənistana güclü təsir-təzyiq rıçaqlarına malik olmasıdır. Bu üzdən şimal qonşumuzun məsələdə hər hansı hərəkətliliyi dərhal yerli və xarici təhlilçilərin diqqətini çəkir.

Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı və İrəvana səfərləri ətrafında hələ də səngiməyən siyasi ajiotaj buna sübutdur. Təhlillərdə ortaq qənaət bundan ibarətdir ki, yaxın perspektivdə Rusiya amili ciddiyə alınmadan Dağlıq Qarabağ məsələsində hansısa müsbət dönüşə nail olmaq mümkünsüzdür.

Analitiklərə görə, Rusiya onun mühüm tərəfdaşları olan Azərbaycan və Türkiyə ilə münasibətlərinin həmişəlik qırılmaması üçün Qarabağ zonasında yeni müharibənin alovlanmasını istəmir və o səbəbə problemin həllində müəyyən irəliləyişin olmasında maraqlı görünür. Çünki Kreml onun da fərqindədir ki, status-kvonun uzun müddət indiki kimi qalması rəsmi Bakını qane etmir.

***

**Bu arada ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" beyin mərkəzi yenidən mövzuya toxunub və "Dağlıq Qarabağ münaqişəsinin həlli qaçılmazdır" başlıqlı məqalə yayımlayıb (publika.az). Mərkəz onilliklər sonra Qarabağ münaqişəsinin həlli ilə bağlı diplomatik irəliləyişə nail oluna biləcəyini iddia edir.**

**Sitat:** "Hər iki ölkə bu bölgəyə iddia edir, lakin o da faktdır ki, 1994-cü ildə altı illik müharibədən sonra Ermənistan Azərbaycanın Dağlıq Qarabağ və yeddi rayonunu öz nəzarəti altına alıb. 15 il ərzində Azərbaycan Rusiyanın Ermənistana dəstəyi nəticəsində bu əraziləri geri qaytara bilməyib. Buna baxmayaraq, Qərblə Rusiyanın arasında yaranan kövrək vəziyyət tezliklə Dağlıq Qarabağ ətrafında bir neçə rayonun Azərbaycana qaytarılması ilə nəticələnə bilər".

**"Stratfor" daha sonra yazır ki, müharibədən sonrakı dövrdə münaqişə bölgəsində nisbi sakitlik hökm sürüb:** "Lakin ötən ildən başlayaraq sərhəd boyu toqquşmalar gücləndi. Noyabrın 9-da Rusiya xarici işlər naziri Sergey Lavrovun Ermənistana gözlənilməz səfərini yerli media Dağlıq Qarabağla bağlı məxfi müzakirələrin aparılması ilə ələqələndirdi. Ola bilsin ki, bu, münaqişədə irəliləyişin müjdəsidir. Ermənistanın faktiki təhlükəsizlik qarantı olan Rusiya münaqişədə hər iki ölkə arasındakı danışıqlarda əsas vasitəçi rolunu oynayıb. Lakin indiki halda Qərbin təzyiqləri altında olan Rusiya Ermənistanın müdafiə tələblərinin artması fonunda Azərbaycanla danışıqlar aparmağa açıq görünür. Eyni zamanda Azərbaycan avropalılar üçün potensial enerji tədarükçüsüdür. Bakı isə Dağlıq Qarabağda vəziyyəti dəyişmək üçün Moskvanın lobbiçiliyindən istifadə edir".

**Məqalədə qeyd olunur ki, Azərbaycan iqtisadiyyatını inkişaf etdirib və Rusiya ilə təhlükəsizlik və diplomatik sahəsindəki əlaqələri aktiv şəkildə genişləndirib:** "Eyni zamanda Azərbaycan torpaqlarını geri qaytarmaq üçün Ermənistana ciddi təzyiqlər edir".

**"Stratfor" analitikləri konfliktin həlli üçün yeni imkanların yaradılması haqda bundan əvvəlki analizi xatırladaraq qeyd edirlər ki, problemin həllində razılıq əldə oluna bilər:** "Əgər diplomatik marşrut uğursuz olacaqsa, Azərbaycanın hərbi yola əl atacağı variantı həmişə gündəmdədir. Bu yaxınlarda baş verən proseslər münaqişənin diplomatik həll yolunu mümkün edir. Noyabrın 11-də bir neçə erməni qəzeti öz mənbələrinə istinadən məlumat verdi ki, Dağlıq Qarabağ ətrafındakı yeddi rayonun beşi Azərbaycana qaytarılır. Lavrovun İrəvan səfərində də bu məsələ müzakirə olunub. Plana görə, beş rayonun geri qaytarılması əvəzində Rusiya müharibənin yenidən başlamamasının zəmanəti olaraq öz qoşunlarını bölgəyə yerləşdirir, həmçinin Azərbaycanı Ermənistanın iqtisadi blokadasını aradan qaldırmağa inandırır. Rusiyanın "Kommersant" nəşri də diplomatik mənbələrə istinad edərək yazdı ki, Laçın rayonu dəhliz olaraq saxlanılmaqla digər ərazilər qaytarılır".

**Mərkəz onu da diqqətə çatdırır ki, heç bir ölkə bu məlumatları rəsmi olaraq təsdiq etməsə də, bunu ciddi qəbul etmək üçün səbəblər var.** "Məsələ ondadır ki, əvvəllər də münaqişə ilə bağlı aparılan danışıqların haqda mətbuata sızmalar olmuşdu. Lakin onların heç biri bu qədər təfsilatlı deyildi. Bundan başqa, Rusiya bu yaxınlarda Ermənistanın hava məkanının təhlükəsizliyini tamamilə öz üzərinə götürdü. Bunun Dağlıq Qarabağ münaqişəsində ərazi güzəştlərinə qarşılıq olduğu deyilir. Həmçinin bölgədə yaradılmış "DQR"-in liderləri rus hərbiçilərinin terrorizmə qarşı mübarizədə Xankəndi aeroportundan istifadə edə biləcəyini açıqladılar", - deyə məqalədə bildirilir.

**"Stratfor" əlavə edir ki, mediada yayılan məlumatlar hələlik Ermənistanın əraziləri geri qaytarmağa razı olacağı demək deyil:** "Çünki bu məsələ ölkədə hələ də siyasi problemdir. Sonuncu dəfə status-kvonun dəyişməsinə razılıq verən Levon Ter-Petrosyan istefa verməyə məcbur edildi. Ermənistanın hazırkı hökumətinin irəliyə doğru istənilən addımı ölkənin daha təhlükəsiz şəraitdə yaşaması deməkdir. Lakin münaqişənin sülh yolu ilə həllinə nail olunsa da, bölgədə yaşayan ermənilərin statusu daxil olmaqlab, loqistik problemlər qalacaq. Danışıqlara digər xarici oyunçular, xüsusən Türkiyə və Birləşmiş Ştatlar da qoşula bilər. Onlar istənilən diplomatik həllin tərəfdarı kimi çıxış edəcək. Çünki Ankara və Vaşinqton getdikcə diqqətini Qafqaz regionuna cəmləşdirir. Türkiyədə yeni hökumət formalaşan kimi bu ölkənin Baş naziri Əhməd Davudoğlu ilə ABŞ hərbi-dəniz qüvvələrinin rəhbərinin Bakıya səfəri də bu kontekstdə diqqət çəkdi. İnkar edilə bilməz ki, bu, Dağlıq Qarabağ münaqişəsinin diplomatik həlli ilə bağlı idi. Rusiya və Ermənistan da münaqişədə qeyri-müəyyən status-kvonun qalması ilə öz mövqelərini tam qoruyub saxlaya bilmir. Buna görə də Dağlıq Qarabağ münaqişəsində dəyişikliklərin olması ehtimalı getdikcə daha aydın və şəffaf olur".

***

**Yada salaq ki, Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov da ötən bazar ANS telekanalına müsahibəsində 5 rayon məsələsinə toxunmuşdu. Rusiya XİN başçısı Lavrovun son İrəvan səfəri kontekstində danışıqlar prosesinin gedişini şərh edən Məmmədov bildirmişdi ki, əvvəlcə Dağlıq Qarabağ ətrafında 5, daha sonra 2 rayon boşaldıla bilər.**

**Sitat:** "Ümumiyyətlə, Azərbaycanın əraziləri, rayonları qaytarılmalıdır. Buna heç bir şübhə yoxdur. Bizim də bununla bağlı mövqeyimiz dəyişmir və heç vaxt da dəyişməyəcək. Məsələ burada hansı mərhələlərdən keçmək lazım olmasındadır. "Madrid prinsipləri"ndə bunların hamısı göstərilib. Azərbaycan ərazilərindən Dağlıq Qarabağ ətrafındakı 5 rayonun qaytarılması bir mərhələdə ola bilər. Sonrakı mərhələdə isə 2 rayonumuz qaytarıla bilər. Tarixi hələ müəyyən olunmamış bir vaxt isə azərbaycanlı qaçqınların Dağlıq Qarabağa qayıtmasından sonra orada bir referendum keçirilə bilər. Danışıqların nəticələrinin nədən ibarət olduğunu bilərdən sonra biz mövqe nümayiş etdirə bilərik".

Göründüyü kimi, rəsmi Bakı da ərazilərin mərhələli boşaldılması, ümumiyyətlə, problemin mərhələli həllinə tərəfdardır. Yalnız referendum məsələsi qaranlıq qalır. Çünki Dağlıq Qarabağda - Azərbaycanın ayrıca götürülmüş bölgəsində referendum keçirilməsi ölkənin konstitusiyasına ziddir. Konfliktin həllində məhək daşı da elə Dağlıq Qarabağın yekun statusudur, referenduma hansı sualın çıxarılması və onun hansı miqyasda keçirilməsi ilə bağlıdır.

## Avropada Qarabağ haqda film göstərilib

**Niderland Krallığının dövlət televiziyasında - "Ned2" kanalında "Qarabağ faciəsi" adlı sənədli film nümayiş etdirilib. Diasporla İş üzrə Dövlət Komitəsindən novator.az-a verilən məlumata görə, filmi mərkəzi ofisi Belçikanın paytaxtı Brüsseldə yerləşən "A.R.D.A Production" şirkəti hazırlayıb.**



Şirkətin rəhbəri Fikrət Aydemir bildirib ki, Avropanın son illərin ən böyük köç dalğasının qarşısında çaşqın vəziyyətdə qaldığı, qaçqınların Avropa şəhərlərindəki parklarda məskən saldığı bir vaxtda Dağlıq Qarabağ problemi və Azərbaycanın yaşadığı qaçqın problemi gündəmə gətirilir.

"Qarabağ faciəsi"nin yaradıcı heyəti 30 dəqiqəlik sənədli filmdə Dağlıq Qarabağda baş verənləri əvvəldən-axıradək göstərməyə çalışıb. Filmdə 25 ildir Dağlıq Qarabağın problemli bölgə olaraq qaldığı, Ermənistanın ərazi iddialarından sonra münaqişənin Ermənistanla Azərbaycan arasında müharibəyə çevrildiyi bildirilir.

Son iki ildə Hollandiya dövlət televiziyası üçün müntəzəm olaraq sənədli filmlər hazırlayan "A.R.D.A Production"ın Dağlıq Qarabağdan bəhs edən bu filminin ərsəyə gəlməsində Diaspora İş üzrə Dövlət Komitəsi də dəstəyini göstərib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Gücsüzlərin gücü...

Hüseynbala SƏLİMOV

**İlk dəfə bu, bir neçə il əvvəl, 11 sentyabrda olmuşdu. O vaxt məlum oldu ki, hətta bir neçə adam da böyük bir dövlətin, fövqəlnüvə dövlətinin də "ürəy"ini nişan ala, ona sarsıdıcı zərbə endirə bilər...**

Bəli, o vaxt yarım əsr yaşı olan nüvə mifi dağıldı. Məlum oldu ki, nüvə heç də yarım əsr düşünüldüyü kimi, ən etibarlı təhlükəsizlik çətiri deyil...

İndi də Paris və dünyanı sarsıdan terror aktı... Amma mən düşünürəm ki, görən, həmin hadisə, Allah eləməmiş, Türkiyədə baş versəydi bu qədər rezonans doğuracaqdımı? Özüm də cavab verirəm ki, yox. Nəyinsə əks-səda və rezonans yaratması üçün o, təəssüf ki, yalnız Qərb ölkələrində baş verməlidir...

Eyni hadisə Türkiyədə və yaxud da başqa ölkədə baş verəndə bu, sıradan bir xəbər olur. Uzağa niyə gedək? Elə PKK-nı götürək. Neçə illərdir ki, həmin bu təşkilat Türkiyəyə və türklərə qarşı əsl müharibə aparır. Amma bunun fərqində olan varmı? Bəli, PKK-nı terrorçu təşkilatlar siyahısına daxil ediblər və iş elə bununla da bitib...

İndi isə Suriya məsələsində, PKK ilə, kürdlərlə bağlı ABŞ və Qərb ölkələri ilə Türkiyə arasında əsl ixtilaf yaşanır. Hətta buna görə Türkiyə qınanır da. Təbii ki, bunu açıq mətnlə edə bilmirlər. Amma diplomatik kanallarla öz narazılıqlarını çatdırmağa çalışırlar. Deyilənə görə, İŞİD Parisdəki kimi, elə Türkiyədə də analoji terror aktı planlaşdırıbmış. Amma son anda xoşbəxtlikdən hadisənin qarşısını almaq mümkün olub...

Bunları deməklə bir növ Qərbdən acığımızı çıxmağa çalışmırıq. Baş vermiş hadisə həqiqətən də adamı sarsıdır...

Amma eyni bir hadisə Qərbdə baş verirsə bu, faciə, Türkiyədə də və ya başqa bir ölkədə baş verirsə "anlaşılmazlıq" olur. Bax, bizi bu narazı salır...

Amma yenə də düşünürük ki, bu da müvəqqətidir. Böyük dövlətlər, eləcə də Qərb dövlətləri gec-tez terrorun nə qədər ümumi bir bəla olduğunun fərqində olacaqlar...

Bəs bu gün üçün əsas nədir? Dünya fenomenal hadisə ilə qarşılaşıb. Təsəvvür edin ki, adam özünü partladır! Bunu müasir Qərb adamından gözləmək çətindir. Bəli, bəlkə də nə vaxtsa orada da olub, amma indi elə bir Qərb adamı tapmaq olmaz ki, o, hansısa ideya uğrunda özünü partlatsın. Bunu da ironiya və qınaq kimi qəbul etmək lazım deyil. Reallıqdır.

Terrorçuların gücü bundadır. Ona görə də onların hərəkətlərini adi məntiqlə, adi məntiq çərçivəsində proqnozlaşdırmaq qeyri-mümkündür. Onlardan normal məntiqə sığmayan və normal məntiqlə yozulmayan hər cür hərəkəti gözləmək olar...

Bəli, normal məntiq deyərdi ki, bu qədər yaxın ölkə varmışkən, terrorçular heç Parisi hədəf seçərlərmi? Onlar bunu bacararlarmı?

Amma seçdilər və bacardılar. Onların gücü də bundadır. Bu da xüsusi müharibə üsuludur. Tez-tez deyirik ki, üçüncü dünya müharibəsi olmadı və nüvə silahı bunun qarşısını aldı. Amma nüvə silahı da terror qarşısında acizdir. Hələ onu təsəvvür etməyə çalışın ki, birdən nüvə silahı onların əlinə keçsə, onu partlatmaqdan çəkinərlərmi? Bəli, bu, daha çox superdetektiv romanlarının süjetini xatırlatsa da, onu deyək ki, bir neçə il bundan əvvəl bizə 11 sentyabr da və 13 noyabr da inandırıcı görünməzdi...

Bəli, onlar - terrorçular hər birimizdən güclüdürlər, çünki bu adamlar hansısa abstrakt "ideya" uğrunda ölə bilirlər. Biz adi, insanlar isə rahat və təhlükəsiz həyata alışmışıq. Bunu da normal şey kimi qəbul etmək lazımdır. Bir az əvvəldə dedik ki, 11 sentyabrı və 13 noyabrı törədənlərin davranışını normal məntiqin hüdudlarından kənarda aramaq lazımdır...

Bəli, bu adamlar normal adam deyillər. Bir Türkiyə filmində maraqlı epizod görmüşdüm. Orada terrorçuların psixi təsirə məruz qoyulduğu göstərilirdi. Nə gizlədim? Əvvəl mənə inandırıcı görünməmişdi. Amma indi bunu tamamilə normal bir şey kimi qəbul edirəm. İnanıram ki, terrorçuların hamısı psixoloji "hazır"lıq keçir. Əks təqdirdə onların davranışını normal məntiqdən kənarda aramaq lazım gəlməzdi...

Ən dəhşətlisi isə başqa şeydir. Terrorun də kökünü sosial problemlərdə axtarmağa adət etmişik. Amma həqiqətdə belədirmi? Təəssüf ki, yox. Demək olmaz ki, İŞİD-çilər kasıblıqdan və aclıqdan bu yolu tutublar.

Təcrübə göstərir ki, cəhənnəmə yol bir çox hallarda cəlbedici "ideya"lardan - utopiyalardan keçir. Ona görə də utopiyalardan və utopistlərdən qorxun. Onlar öz beyinlərindəkiləri həyata keçirmək üçün adətən heç nədən çəkinmirlər...

# Müəllimlər iki aydır maaş ala bilmir

**Bir neçə rayonda, o cümlədən də Bakı şəhərindəki bir neçə qaçqın məktəblərində müəllimlərin maaşı gecikdirilir. Hətta informasiya saytlarında və sosial şəbəkələrdə yayılan məlumatlara görə, Biləsuvar rayonunun Aşağı Cürəli orta məktəbinin müəllimləri maaşlarını bir neçə aydır ki, ala bilmirlər. Əmək haqlarını ala bilməyən müəllimlər buna etiraz etsələr də, müsbət bir dəyişiklik olmayıb. Cəlilabadda da müəllimlər 2 aydır ki, maaş ala bilmir.**

## Etibar Əliyev: "Bu cür əmək haqqı siyasəti təhsilin keyfiyyətinə də təsir göstərir"



Bəs müəllimlərin maaşlarının gecikmə səbəbi nədir? Müəllimlərin əmək haqlarını vaxtı-vaxtında ala bilməməsində günahkar kimdir? Modern.az saytı məsələ ilə bağlı aidiyyəti qurumlardan münasibət öyrənməyə çalışsa da, konkret cavab verən olmayıb.

Maliyyə Nazirliyindən məsələ ilə bağlı heç bir məlumat verilməyib. Bildirilib ki, bununla bağlı Təhsil Nazirliyindən münasibət öyrənilməlidir. Təhsil Nazirliyindən isə bu cür məsələlərlə bağlı hər zaman bildirilir ki, yerlərdəki təhsil şöbələri onlar tərəfindən maliyyələşdirilmədiyi üçün bu haqda məlumat verə bilməyəcəklər. Onlar yalnız yerlərdəki təhsil şöbələrinə bununla bağlı tövsiyə verə bilərlər.

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bildirdi ki, bütün bu problemlərə vahid yanaşma olmalıdır:** "Ölkə üzrə təhsilin qarşısına, əməkhaqlarının verilməsi də daxil olmaqla, çıxan bütün problemlərə vahid yanaşma olmalıdır. Bölgələrin birində müəllimlərin vaxtında, digərində isə gecikmələrlə əmək haqqı almaları yolverilməzdir. Azərbaycan prezidentinin 2014-cü il 24 iyul tarixli sərəncamının 5-ci bəndində yazılır: "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təhsil sahəsinin 2015-ci il yanvarın 1-dən mərkəzləşdirilmiş maliyyələşməyə keçməsini təmin etsin". Sərəncamda ən mühüm məqamlardan biri maliyyə və inzibati resursların vahid təhsil siyasətinə uyğun planlaşdırılması və təhsil idarəçiliyinin qarşıda duran vəzifələrə adekvat qurulmasıdır. Lakin sərəncamın icrası dayandırıldığından mərkəzləşdirilmiş maliyyə siyasəti də həyata keçirilməmişdir. Yəni yerli təhsil şöbələri və onların tabeliyində olan təhsil müəssisələri Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilmir. Buna görə də müəllimlərin əmək haqqının yubadılmasına belə deyək ki, Təhsil Nazirliyi cavabdehlik daşımır. Bu cür əmək haqqı siyasəti təhsilin keyfiyyətinə də təsir göstərir. Bölgələrdə təhsilin keyfiyyətinin aşağı olmasının əsas səbəblərindən biri də yerli icra hakimiyyətlərinin təhsilin nəticələrinə, həmçinin şəffaf və səmərəli idarəetmə sisteminin formalaşdırılmasına cavabdehlik daşımamasıdır. Yəni maliyyələşməni və əsasən kadr siyasətini həyata keçirən qurum keyfiyyətə görə cavabdehlik daşımır. Dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı, postsovet məkanına daxil olan ölkələrin çoxunda məktəblərə maliyyə müstəqilliyi verilib. Bunun da keyfiyyətə birbaşa təsiri var. Müəllimlərin maaşlarından qeyri-qanuni tutulmalar, maaşların gecikməsi, rayon təhsil şöbələrinin maliyyə fırıldaqları ikili tabeçiliklə bağlıdır və hesabatlılıqda qeyri-müəyyənlik yaradır. Bu, aradan qalxmamış problem həll olunmayacaq".

**E.Əliyev bununla bağlı maraqlı bir detala toxundu:** "Məşhur deputatlardan biri təhsil adamı olduğundan seçildiyi rayonun təhsili ilə maraqlanarkən dəhşətli faktlar aşkara çıxarmışdı: həmin rayonun təhsil şöbəsinin müdiri kişi müəllimlərin bir qismini dekretə çıxarıbmış. Məsələni deputatın qaldırmasına baxmayaraq, həmin təhsil şöbə müdirinə "gözün üstə qaşın var" deyən olmadı. İkili tabeçiliyin kökündə həm də belə şeylər dayanır".

❑ Günel MANAFLI

# Cahangir Hacıyevin şirkətinin işçiləri yenidən aksiyaya hazırlaşır

## "Azərinşaatservis" MMC-nin əməkdaşları 6 aydır maaş ala bilmir

**"Azərinşaatservis" MMC-nin 6 aydır maaşlarını ala bilməyən əməkdaşları yenidən öz haqlarını tələb etmək üçün etiraz aksiyası keçirməyi planlaşdırırlar.**




İşçilər bildiriblər ki, şirkətin rəsmiləri tərəfindən noyabrın 17-də onlara əmək haqlarının ödənilməsinə söz verilib. İşçilərin sözlərinə görə, əgər onlar əmək haqqı ala bilməsələr, daha böyük formada aksiya keçirəcəklər.

Onu da qeyd edək ki, "Azərinşaatservis"in əməkdaşları maaşlarını almaq məqsədi ilə noyabrın 17-də quruma aid Müşfiqabad qəsəbəsində yerləşən obyektdə toplaşıb, oradan isə "Azəryolservis" ASC-nin baş ofisinə yollanıblar. Onlar həmçinin bildiriblər ki, işlədikləri müddətdə şirkətlə bağladıqları müqavilədə qeyd olunan iş saatından çox çalışıblar. Lakin əlavə saatlar bir yana, heç təyin olunan maaşlarını da ala bilmirlər. Maaşlarını ala bilməyənlərin əksəriyyəti rayon sakinləridir. Məlumata görə, şirkətin təkcə Lənkəran-Masallı layihəsində 250 işçi çalışıb.

Xatırladaq ki, "Azərinşaatservis" MMC-nin maaşlarını ala bilməyən işçiləri oktyabrın 29-da öncə "Azəryolservis"in, sonra isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısına toplanaraq, öz haqlarını tələb etmişdilər. Nazirlikdən onlara bildirilmişdi ki, problemləri araşdırılacaq və müvafiq addımlar atılacaq.

**Məsələ ilə bağlı musavat.com-a "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli də danışıb. O bildirib ki, təmsil etdiyi qurumun müəyyən layihələrində "Azərinşaatservis" MMC iştirak edib:** "Onların bizdən nə istədikləri anlaşılan deyil. Biz pul ödəyən təşkilat deyilik. Sadəcə olaraq, sifariş verib, layihələri həyata keçiririk. Tender keçirilir və müəyyən şirkətlər var ki, qalib gəldikləri zaman həmin layihələri həyata keçirirlər. Layihələrə uyğun olaraq bizə sertifikatlar təqdim olunur. Həmin sertifikatları da aidiyyəti üzrə göndəririk. Məsələn, layihə beynəlxalq maliyyə qurumları üzrə maliyyələşə bilər. Bu zaman biz xarici banklara göndəririk. Həmin bank da nəzərdə tutulan ödənişi şirkətin hesabına keçirir. Onların layihələrində Muğanlı-Yevlax hissəsi var idi. Bu layihədə müəyyən miqdarda ödəniş qalmışdı. Bunun da səbəbi podratçı şirkətin bank zəmanətlərinin bitməsi idi. İşin planına uyğun olaraq, bank zəmanətləri və sertifikatlar xarici banka göndərilməli idi. Zəmanətlər də olmadığı üçün bu ləngimişdi. Bizim rəhbərlik də "Azərinşaat"ın işçilərinin şəkvasını qəbul etdi. Onların öz şirkətlərinin daxili problemi ucbatından maaş verilməsi geciksə də, bizim rəhbərlik işçilərlə görüşüb, humanist addım atıb, bildirdi ki, bizim üzərimizə nə düşürsə köməklik edəcəyik. Bir daha qeyd edirəm ki, maliyyə işinə bizim qurum baxmır. Biz sadəcə olaraq, görülən işləri təsdiq edirik".

Qeyd edək ki, adıçəkilən şirkətin Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevə məxsus olduğu bildirilir.

❑ Əli RAİS

**Milli valyuta olan manatın yenidən ucuzlaşacağı ehtimalları güclənir. Əksər ekspertlər ilin sonuna qədər növbəti devalvasiyanın olacağını bildirirlər. Bildirilir ki, yaxın aylarda dolların bahalaşması digər valyutaları, o cümlədən manatı təzyiq altında saxlayacaq. Ekspertlərin fikrincə, hökumət hazırda devalvasiyaya getməyin yollarını axtarır.**

# Dollar 1,50 manata qədər bahalaşa bilər

## Ekspert: "Hökumət hazırda devalvasiyaya getməyin yollarını axtarır"...



**Ekspert Samir Əliyev** açıqlamasında bildirib ki, hökumət ehtiyatları qorumaq məcburiyyətində qalaraq manata dəstəyi azaldacaq: "ABŞ iqtisadiyyatı ilə bağlı müsbət statistik məlumatlarla eyni vaxtda Avropa Mərkəzi Bankının avro çapını artıq niyyəti dollara bahalaşdırıcı, avroya isə ucuzlaşdırıcı təsir göstərdi. FED-in dekabr görüşündə uçot dərəcəsini qaldırması ehtimalı artıb. Əgər bu, baş verərsə, təbii ki, dollar bahalaşmağa başlayacaq. Avropa Mərkəzi Bankının depozit faizlərini azaltmaq və kəmiyyət yumşaldılması proqramını, ayda 60 milyard avro miqdarında pul çapını artırmaq niyyəti də dolların möhkəmlənməsini stimullaşdırır. Deməli, yaxın aylarda dolların bahalaşması digər valyutaları, o cümlədən manatı təzyiq altında saxlayacaq. Dolların dünya bazarlarında möhkəmlənməsi Azərbaycanın maliyyə bazarına da təsirsiz ötüşməyib. Təkcə ötən həftə Mərkəzi Bankın dollar satışı 300 milyon dollardan çox olub. Bu, Mərkəzi Bankın sürətlə azalan valyuta ehtiyatları üçün arzuolunan deyil. Hazırda Mərkəzi Bankın ehtiyatlarının həcmi 6,8 milyard dollardır. Ötən ay, yəni oktyabrda azalma 180 milyon dollar olub. Son bir ildə isə 2 dəfədən çox itki olub. Yəqin ki, hökumət müəyyən həddə qədər ehtiyatların "əriməsinə" imkan verəcək. Düşünürəm ki, bu hədd uzağı 5-6 milyard dollar civarında olacaq. Ondan sonra manatı saxlamağa maraq göstərməyəcək. Təsəvvür edin ki, bir il ərzində, 2014-cü ilin sentyabrından 2015-ci ilin sentyabrına qədər olan müddətdə ölkənin strateji valyuta ehtiyatları 20 faiz azalıb. Bu müddətdə ehtiyatlar 10,6 milyard dollar "əriyərək" 52,3 milyarddan 41,7 milyarda düşüb".

**Ekspertin sözlərinə görə, əgər neftin qiyməti indiki səviyyədə qalarsa, bazarın liberallaşdırılması və islahatların aparılması sahəsində hökumət zəruri addımlar atmazsa, strateji valyuta ehtiyatımız ən yaxşı halda 4 il bəs edər:** "Ona görə də hökumət ehtiyatları qorumaq məcburiyyətində qalaraq manata dəstəyi azaldacaq. Bunu devalvasiya da adlandıra bilərik. Hökumət hazırda devalvasiyaya getməyin yollarını axtarır. Bu, yumşaq da ola bilər, fevral ayında olduğu kimi, kəskin də. Təsadüfi deyil ki, hökumət üzən məzənnəyə keçmək niyyətini elan edib. Fikrimcə, Azərbaycanda yaxın dövrlərdə bu, mümkünsüzdür və hətta deyərdim ki, məsləhət deyil. Çünki onun fəsadları ağır ola bilər. İqtisadiyyatı diversifikasiya olundan belə əriməkdə davam edir. Avqust ayı istisnadır. Neft Fondunun bazarda dollar satışı kifayət qədər dəstək olsa da, tələbatı tam ödəməyə kifayət etmir. Ona görə də, fikrimcə, artıq devalvasiyanın olacağı sual doğurmur. Onun forması və vaxtı müzakirə mövzusudur. Devalvasiya arzuolunan yol deyil. Ancaq yaradılan iqtisadi vəziyyət bunu diktə edir. Əvvəlki fikrimdə qalaraq qeyd etmək istəyirəm ki, devalvasiyanın baş verməsi zaman məsələsidir və bunun qarşısını ancaq neftin bahalaşması ala bilər. Hər bir halda, bahalı manat dövrü bitdi və bundan sonra ancaq ucuzlaşmasını müşahidə edəcəyik".

**Ekspertin sözlərinə görə, Federal Ehtiyat Fondu artıq 2014-cü ilin sonundan açıqlama verib ki, 2015-ci ilə uçot dərəcəsini artıracaq:** "Enerji bazarında və dünya iqtisadiyyatında baş verənlərin fonunda Ehtiyat Fondu bu qərarı qəbul etməkdə çətinlik çəkirdi. Bundan 10 ay keçməsinə baxmayaraq, hələ bu qərar qəbul edilməyib. Federal Ehtiyat Fondu öz siyasi nüfuzunu qorumaq üçün mütləqdir ki, uçot dərəcələrinin artılması haqqında qərar versin. Ümumiyyətlə, bu kimi təhlillərin fonunda hazırkı investorlar gözmayan ölkələrdə üzən məzənnəyə keçid əlverişli deyil və bazar məzənnə oynamasından qısa müddətdə çökə bilər. İxracımızın 90 faizdən çoxunun neft-qaz olması alternativ mənbələrdən ölkəyə dollar daxil olması imkanlarını məhdudlaşdırır. Uzaqbaşı idarəolunan üzən məzənnə siyasətindən danışmaq olar. Onun özü də çətinliklər yarada bilər və indiki fiksə edilmiş məzənnə siyasətindən ciddi fərqlənmir. Tədiyyə balansının 6 aylıq vəziyyəti optimist xəbər vermir. Bir il ərzində cari əməliyyatlar balansı 100 dəfə azalaraq 6,4 milyard dollardan 63 milyona düşüb. Buna səbəb əsasən ixracın azalması, idxalın isə artması olub. Tədiyyə balansı həm də onu göstərir ki, ölkədən kapital axını kəskin artıb. 6 ayda depozit və nağd pul şəklində vəsaitin çıxarılması 4,5 milyard dollardan çox olub. Halbuki ötən ilin müvafiq dövründə bu rəqəm 2,6 milyard dollar olub. İdxalın artması onun bir hissəsinin rəsmiləşdirilməsi ilə bağlıdır. Ancaq nəzərə alaq ki, idxal tam rəsmiləşdirilmir. Deməli, kapital axını rəsmi göstərilləndən daha çoxdur. Elə bunun nəticəsidir ki, Mərkəzi Bankın ehtiyatları hətta panika olmayır ki, dekabrda uçot dərəcələrinin artırılması haqda qərar veriləcək və dollar sürətlə bahalaşacaq. Bunun nəticəsində bu gün dollara olan tələbat sürətlə artıb".

**İqtisadçı-ekspert Rəşad Həsənov isə bildirib ki, bu ilin dekabrında 1 dollar 1,40-1,50 manata kimi bahalaşacaq. Az-News.az-a açıqlamasında ekspert qeyd edib ki, dolların dünya bazarlarında bahalaşmasının əsas səbəbi Federal Ehtiyat Fondunun uçot dərəcələrinin artırılma ehtimalından irəli gəlir:** "Əvvəlki dövrlərdə, xüsusilə sentyabr toplantısından sonra dünya bazarlarında, o cümlədən maliyyə mərkəzlərində belə bir fikir formalaşdı ki, Federal Ehtiyat Fondu böyük ehtimalla 2015-ci ildə uçot dərəcəsini artırmayacaq. Bunun qarşılığında dolların sürətli ucuzlaşması müşahidə edildi. Bu proses oktyabr ayına kimi davam etdi. Noyabrın əvvəlində isə ABŞ iqtisadiyyatı ilə bağlı açıqlamalar göstərdi ki, bir çox sahələrdə artımlar müşahidə olunub. Federal Ehtiyat Fondunun açıqlamasından da məlum oldu ki, əgər proseslər bu istiqamətdə davam edərsə, dekabr toplantısında böyük ehtimalla uçot dərəcələrinin artırılması ilə bağlı qərar veriləcək".

**R.Həsənov hesab edir ki, bütün bunlar təbii ki, Azərbaycana da öz təsirini göstərir:** "Dekabrın 18-nə kimi dolların qalxması daha böyük sürətlə davam edəcək. Ondan sonra Federal Ehtiyat Fondunun qərarından asılı olaraq, ola bilsin ki, Mərkəzi Bank addımlar atmaq məcburiyyətində qalsın. Fond uçot dərəcəsini artıracaqsa bir çox maliyyə qurumları, o cümlədən dolların bahalaşması davam edə bilər. Bu, Azərbaycan üçün təhlükə formalaşdıracaq". **Ekspertin fikrincə, neftin qiymətində də bahalaşma müşahidə edilməzsə, o zaman böyük ehtimalla Mərkəzi Bank 2016-cı ilin əvvəlində sərt qərarlar qəbul etməyə, yaxud da 2015-ci ilin fevral ayında baş verən devalvasiyaya bənzər bir prosesin olacağı ilə bağlı qərar verə bilər:** "Manatın məzənnə siyasəti tətbiq olunarsa, bu zaman ilkin dövrlərdə 1 dollar 1,40-1.50-yə kimi bahalaşacaq. Sonrakı dövrlərdə isə 1,35 arasında stabilləşə bilər".

❑ **Röya RƏFİYEVA**



# Azərbaycan nefti 43 dollardan da aşağı düşdü

**Dünya birjalarında neftin qiyməti müxtəlif istiqamətlərdə dəyişib. Məlumata görə, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Layt" markalı neftin bir barelinin qiyməti 0,84 dollar bahalaşaraq 41,71 dollar, Londonun İCE ("İnter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,01 dollar artaraq 44,70 dollar olub.**

London birjasında "AzəriLayt" markalı neftin bir barelinin qiyməti isə 1,38 dollar ucuzlaşaraq 42,91 dollar təşkil edib.(fins.az)



# Mübariz Mənsimova yenə İŞİD-lə neft alveri ittihamı

## İspaniya mənbələri İraq Kürdüstanından neftin hazırda İŞİD-in nəzarətində olan Kərkük-Ceyhan neft kəməri vasitəsilə "Palmali"nin tankerləri ilə daşındığını bildirir

**Azərbaycanlı oliqarx Mübariz Mənsimovun dünyanın ən qəddar terror təşkilatı olan "İslam Dövləti" (İŞİD) ilə razılaşdırılmış neft biznesinə dair yeni məlumatlar yayılıb.**

Virtualaz.org saytı xəbər verir ki, İspaniya mənbələri İraq Kürdüstanından hazırda İŞİD-in nəzarətində olan Kərkük-Ceyhan neft kəməri vasitəsilə Türkiyənin Ceyhan limanına Bağdad hökumətinin razılığı olmadan nəql edilən neftin Mənsimovun tankerləri ilə daşındığını bildirir.

"El Economista" qəzetində yer alan məlumatda deyilir ki, neft qaçaqmalçılığı İŞİD-in əsas gəlir qaynaqlarından biridir. Bu terror təşkilatının nəzarətində olan ərazilərdən nə qədər neft hasil olunduğuna dair müxtəlif rəqəmlər var.

Lakin təxmini hesablamalara görə, hazırda İŞİD İraq və Suriya ərazisindəki yataqlardan gündə 1,5-2 milyon barelə qədər neft hasil edə bilər. Müqayisə üçün qeyd edək ki, bu, Azərbaycanın BTC ilə ixrac etdiyi neftin həcmindən az qala iki dəfə çoxdur.

İŞİD-in bu neft hasilatından əldə etdiyi gəlir isə OPEC-ə üzv olan bəzi ölkələrin neft gəlirləri ilə müqayisə oluna bilər.

İŞİD nefti bazar qiymətindən az qala iki dəfə ucuz satır. Treyderlərin yanacaqdaşıyan maşınları İŞİD-dən neft almaq üçün həftələrlə növbədə dayanırlar. Onlar İŞİD-dən nefti 25-30 dollara alır, daha sonra neftayırma zavodlarına, yaxud vasitəçilər üzərindən dünya bazarı qiymətlərinə satır. Bu səbəbdən İŞİD-lə neft alveri olduqca sərfəli biznesdir.

Bundan əvvəl Qərb mənbələrində Mənsimovun şirkətinə aid tankerlərin İŞİD neftini daşıdığı haqda xəbərlər yayılıb.

"El Economista" qəzetində yer alan məlumatda isə deyilir ki, İraq kürdləri Bağdadın icazəsi olmadan Kərkük-Ceyhan boru kəməri ilə Türkiyənin Ceyhan limanına neft nəql edir. Və bu neft nəqli üçün İŞİD-dən icazə almaq lazımdır. Çünki kəmər İŞİD-in nəzarətindədir.

Bugünlərdə "Palmali Shipping & Agency" şirkəti tərəfindən kirayələnmiş iki tanker Ceyhan limanından Kürdüstan nefti ilə doldurularaq yola salınıb.

Daha iki tanker isə İŞİD-in icazəsi ilə hazırda yüklənməkdədir. ABŞ-ın və İraq hökumətinin xəbərdarlığından sonra aparıcı şirkətlərdən heç kim bu nefti almır. Ancaq tankerlərin yüklənməsi və yola salınması göstərir ki, İraq Kürdüstanı və İŞİD qaçaq neftə alıcı tapa bilirlər.



# Medovixalı ziyafət və aeroportdakı "Sarı gəlin"

**Samir SARI**

**Ölkədə internet rabitəsində yaranan müvəqqəti problem göstərdi ki, müasir insanları daş dövrünə, internetsiz, avtomobilsiz, kondisionersiz, televizorsuz dönəmlərə qaytarmaq mümkün deyil.**

Düzdür, klassik inqilabçıların sözü olmasın, ayrıca götürülmüş ölkələrdə buna cəhd etmək olar, amma onda da gərək əlində "Kalaşnikov", "Uzi" və sair müasir silahlar olsun. Yoxsa internet, televizor görmüş adamların ağzını bir yerə yığmaq olmaz. Hamısı "Apokalpsis", "Rembo" kimi filmlərə baxıb, bir xeylisi meşəyə qaçıb müqavimət göstərər.

İşin pis tərəfi odur ki, müasir insanları daş dövrünə qaytarmaq istəyənlər buna tam eləmirlər, özləri "Rang Rover"də gəzəcək, "Ayfon" işlədəcək, təbii ki, əllərində "Kalaşnikov" da olacaq, amma camaat televizordan, internetdən imtina etməlidir.

Əlbəttə, isti ölkələrdə kondisionerdən, soyuducudan və bu kimi faydalı gavur icadlarından imtina etmək olmaz, bunlar lazımlıdır, ancaq tutaq ki, audiopleyer, rəqəmsal fotoaparat nəyə lazımdır? Lazım deyil, çünki musiqi də, şəkil çəkmək də haramdır.

Bəs müasir tibb avadanlıqları, əməliyyat üsulları necə olsun, axı onlar da elmi-texniki tərəqqinin nailiyyətləridir və kafirlər tərəfindən icad olunub.

Burada da məsələ aydındır, əgər əməliyyata ehtiyacı olan qəbilənin şeyxidirsə və o, lazer şüası ilə əməliyyat olunmalıdırsa, bu, Allahın buyruğudur. Yox, ölüm döşəyində olan kasıbdırsa, ta neyləmək olar, "ölüm haqdı, çıxmaq olmaz əmirdən", "Allahın yazdığıdır", "Tanrının işinə əl aparmaq olmaz" və s.

O vaxt maqnitofon icad olunub sürətlə bütün dünyada yayılanda İran üləmaları elə hey deyirmişlər ki, bu, şeytan əməlidir, haramdır, kafir ölkələrin icadıdır, amma sonra inqilab etmək lazım gələndə öz müraciətlərini maqnitofon kasetləri vasitəsilə yayıb xalqa çatdırıblar.

İndinin özündə də İŞİD interneti haram buyura-buyura, başkəsmə, adamyandırma videolarını internet resurslarının ən bərkgedəni olan "Youtube" saytına yükləyir. Belə çıxır ki, videoalarda zənən xeylağının açıq dizinin görünməsi haramdır, camaatın əxlaqını poza bilər, amma insanların kütləvi şəkildə edam edilməsini göstərmək halaldır, gənc nəslin təlim-tərbiyəsinə töhfə verir.

Bəli, söhbət ondan gedir ki, dünyanı yenidən daş dövrünə qaytarmaq istəyənlər əslində özləri o dövrə qayıtmaq istəmirlər, başqalarını qaytarmaq istəyirlər ki, asan idarə edə bilsinlər.

Bir ara Taliban Əfqanıstanda elə etmişdi, camaatın evlərinə hücum edib, televizorları, antenləri yığışdırmışdılar ki, 1400 il öncə bunlar olmayıb, yenə də olmaya bilər, olmamalıdır, çünki kafir icadlarıdır. Hətta elektrik işığını da kəsmişdilər ki, qədim zamanlarda adamlar çıraq işığında yaşayıblar. "Kalaşnikov"un qorxusundan adamlar zülmətə, informasiyasızlığa, əyləncəsizliyə dözürdülər, dözməyənləri isə tutub aparırdılar Kabil stadionuna və edam edirdilər. Alın, bu da sizə müftə tamaşa, baxın, zövq alın.

Srağagün internet 5-6 saat pis işlədi, sürət olmadı, yüz minlərlə adam özünü daş dövrünə düşmüş kimi hiss etdilər. Ona görə ki, adam Vaşinqtondakı (Parisdəki, İstanbuldakı, Londondakı, Lənkondakı, Zərdabdakı, Zaqrebdəki və s.) qardaşıyla (iş yoldaşıyla, ortağıyla, nişanlısıyla və b.) yazışdığı yerdə rabitə kəsildi və ünsiyyət bitdi. Di gəl, dünyanın o başıyla əlaqə saxla, görüm, necə saxlayırsan.

Adicə 20-25 il əvvəl ölkəmizdə mobil telefonların olmadığı, naqilli telefon xəttinin isə rayonlar arasında pis işlədiyi dönəmlərdə burdan basa-basa Qazağa, Astaraya, Qusara dəvətnamə aparanlar olurdu. Bir gün o tərəfə, bir gün bu tərəfə, iki gün vaxt gedirdi. Amma indi zəng edirsən, mesaj yazırsan, istəsən hətta dəvətnamənin şəklinin "Votsap"dan, facebookdan göndərirsən, 5 saniyədən sonra qohumlar toya dəvət olunmuş, iki günün vaxtına, əziyyətinə, xərcinə qənaət edilmiş olur.

Yəni indiki dövrdə həyatımızı asanlaşdıran çox şeylər var. Di gəl, hərdən bəzi qüvvələr ortaya çıxıb deyirlər, dədəmiz-babamız internetmi işlədirdi, biz də işlətməsək, nə olacaq.

Canımıza dərd olacaq - özü də sözün birbaşa mənasında. Bu internet dədə-babamızın zamanında olsaydı, yəqin ki, onlar da dinc durmazdılar, ən azı nənələrimizi facebookda "bişirərdilər".



# G20-də Əsədin "qələmi qırıldımı?"

## Sammitin əsas müzakirə mövzularından biri Suriya rəhbəri oldu; ABŞ prezidentinin mətbuat konfransı problemin həlli istiqamətində açıq mesaj kimi qəbul oluna bilər

**Türkiyənin Antalya şəhərində keçirilən G20 sammiti başa çatdı. Heç şübhəsiz ki, sammitin əsas müzakirə mövzularından biri Suriya və Bəşər Əsəd oldu. Xüsusilə ABŞ prezidenti Barak Obamanın sammitin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransı bir çox mətləblərdən xəbər verdi.**

Obamanın "Bəşər Əsədin qəti şəkildə Suriyanın gələcəyində bir rolunun olmadığına inanırıq. Suriya xalqına qarşı Əsədin açdığı savaş yaranmış böhranın səbəblərindən biridir" kimi fikirləri bəzi sualların cavabı oldu. Bu fikirlərdən çıxış etsək, bu qənaətə gəlmək olar ki, Suriya rəhbərinin yaxın gələcək karyerasının sonunu gətirəcək. Rusiyanın əvvəl İŞİD problemini, ardınca Bəşər Əsəd məsələsini həll etməklə bağlı siyasəti ABŞ və Rusiya dövlətlərinin qarşıdurmasının artan xətlə davam edəcəyinə bir işarədir.

Bəzi ekspertlər hesab edirlər ki, G20 sammiti Əsədin qələmini "qırdı". Xüsusilə sammitdən iki gün öncə Paris terrorunun törədilməsi, hadisədən sonra İŞİD-in faciə ilə bağlı açıqlamaları Suriya rəhbərini hədəf nöqtəsindən nəinki yayındırdı, əksinə, hədəfə tuş gətirdi. Suriya probleminin tezliklə həll edilməsi istiqamətində dünyanın əksər güc sahibi olan ölkələrinin fikirləri üst-üstə düşür.

Sabiq MTN-çi İlham İsmayıl hesab edir ki, Bəşər Əsədin qələminin qırılması üçün ilk növbədə Rusiyanın qələminin ucu qırılmalıdır: "Bu, Əsəd məsələsi deyil. Sammitdə çoxlu-çoxlu suallar qaldı. Paris terroru miqyasına görə geniş bir səviyyəyə çatdı. Sammitdə ortaq mövqe qoyulması məsələsi qaldırıldı. Burada da bəzi suallar meydana çıxdı. Kim quru qoşunlarından istifadə edəcək, yaxud hansı addımı atacaq? Məsələlərin kardinal şəkildə necə həll olunacağı sualı cavabsız qalıb. Orta da bir sual da cavabsız qalır. Rusiya keçid dövrü üçün Bəşər Əsədi yenə də müdafiə edəcəkmi? Səhərisi gün İŞİD-dən azad olunan torpaqlara Əsədmi rəhbərlik edəcək? Çünki Əsəd məsələsi hələ də həll olunmayıb. Hesab edirəm ki, məsələ ilə bağlı Kerri və Lavrovun görüşləri olacaq. Ondan sonra qəti qərarlar qəbul ediləcək. Amma hesab etmək olar ki, Əsədin qələmi qırıldı. Ancaq tam yox. Bu bir müddət davam edəcək".

**İ.İsmayıl onu da bildirdi ki, Rusiya bu məsələlərdə hələ ki bir addım öndədir:** "Rusiya ilk baxışdan üstün tərəf kimi görünür. Siyasətləri budur ki, ilk öncə İŞİD, ardınca Suriya məsələsi həll olunsun. Bunu terrorun digər ölkələrdə də ola biləcəyi ilə əsaslandırırlar. Unutmayaq ki, dünya siyasəti elədir ki, minlərlə insan qırılır, amma siyasət dəyişmir. Yenə də böyük siyasət, böyük maraqlar var. Əsədin timsalında Suriyanın yaxın gələcəyi heç də yaxşı görünmür. ABŞ, İngiltərə, Fransa, Türkiyə və digər ölkələr qərarsızdırlar. Suriya və İraqda İŞİD-dən azad olunacaq ərazilərin kimə verilməsi ilə bağlı. Yenə də Əsədə veriləcək? Məsələ detallarına qədər həll olunmayıb. Amma tezliklə həllini tapacaq. Rusiya, sadəcə, ilk baxışda özünü üstün tutur. Amma geniş mənada mümkün deyil".

**Sabiq MTN-çi proseslər bu şəkildə gedərsə, Əsədin gündəmdən düşmə ehtimallarının olduğunu da qeyd etdi:** "Aydın məsələdir ki, quru qoşunları əməliyyatlara başlayarsa, ərazilər azad edilərsə, həmin ərazilərdə nəzarətin Əsəd qoşunları tərəfində qalmasına razı olmayacaqlar. Nəzarəti kifayət qədər özlərində saxlamağa çalışacaqlar. Hesab edirəm ki, ABŞ keçid dövrü ilə razılaşacaq. Nə qədər zaman çəkəcək, bilinmir. Amma Amerika qısa olmasına çalışacaq. Əsədlə 5-6 ay ərzində məsələnin bitirilməsinə çalışılacaq".

**Müsahibimiz G20-də Rusiyanın ambisiyalı siyasət yürütdüyünü bildirdi:** "Putinin siyasəti ambisiyalıdır. Əsəd kimi rejimləri müdafiə etməklə məşğuldur. Özünün doğru olduğunu hər addımında təsdiq etməyə çalışır. Hər halda, onun ambisiyası çox da uzun çəkməyəcək. Bütün dünya son terrordan sonra məsələnin tezliklə həll olunmasının tərəfdarıdır".

**İ.İsmayıl gedən bütün proseslərin Əsədin əleyhinə işlədiyi qənaətindədir:** "Əsəd ölkəsinə nəzarət edə bilmir. Özünü çətin vəziyyətə salıb. Proseslər uzana da bilər, tezləşə də. Bütün formalardan asılı olmayaraq, Əsədin sonunun gəldiyini demək olar. Sadəcə, Rusiya çalışır ki, ABŞ və Türkiyənin təsiri altında olan şəxs Suriyaya rəhbərlik etməsin".

❑ **Cavanşir ABBASLI**

# Bakıdakı Fransa səfirliyinin təhlükəsizliyi gücləndirilib



## Terror qurbanları ölkəmizdə də anılır...

**Parisdə baş verən terror aktını fransızlarla bərabər, dünyanın bir çox ölkələrinin vətəndaşları da pisləyib, bu hadisəni insanlığa qarşı atılmış addım hesab edirlər. Baş verən terror hadisəsini həmçinin azərbaycanlılar da pisləditlər. Kimisi sosial şəbəkədə şəxsi səhifəsində Fransanın dövlət bayrağını paylaşaraq, kimisi də sözügedən ölkənin Azərbaycandakı səfirliyinin qarşısına gedib terrordan həyatını itirənlərin ruhlarını anaraq...**

"Yeni Müsavat"ın əməkdaşı Fransanın Azərbaycandakı səfirliyinin qarşısında olub. Qeyd edək ki, terrorla əlaqədar olaraq, səfirliyin binasında təhlükəsizlik tədbirləri gücləndirilib. Fransanın dövlət bayrağı aşağı salınıb. Oradan keçən demək olar ki, hər kəs terror qurbanlarının xatirəsini anmaq üçün ayaq saxlayır. Kimisi səfirliyin önünə gül, kimisi də şam qoyur. Vətəndaşlarımız terroru pisləyərək, baş verən hadisəyə görə üzüldüklərini bildirirlər.

Bununla yanaşı, Azərbaycanda fəaliyyət göstərən müxtəlif ölkə səfirliklərinin nümayəndələri də orada təşkil olunan anım tədbirində iştirak edirlər.

Parisdəki terror aktı ilə əlaqədar Qafqazın şeyxi Allahşükür Paşazadə də Fransa səfiryində olub. Qafqazın şeyxi jurnalistlərə açıqlamasında bildirib ki, İslam dinindən istifadə edərək insanları öldürmək, Allaha və İslama qarşı çıxmaq deməkdir. Terror hücumu həyata keçirən şəxslər həm bu dünyada, həm də axirətdə cəzalarını çəkəcəklər: "Dünya ictimaiyyəti Azərbaycanda və digər ölkələrdə baş verən terror hadisələrinə lazımi qiymət verməli. 20 Yanvar hadisələrində dövlət rəhbərləri bizim haqq səsimizi eşitmədilər. Bu səbəbdən də sonrakı terror hadisələri baş verdi. Livanda, Sinay yarımadasında və Fransada baş verən hadisələr həmin terrorun davamıdır. Bu gün dövlət rəhbərləri və din xadimləri birləşib öz qəti sözlərini deməlidir".

Qeyd edək ki, anım tədbirində iştirak edənlər səfirlikdə qoyulan xatirə kitabına ürək sözlərini yazıblar.

Xatırladaq ki, 13 noyabrda Fransanın paytaxtı Parisdə 7 ayrı məkanda baş verən terror aktları nəticəsində 129 nəfər həyatını itirib. Hadisədən sonra Fransa prezidenti Fransua Olland ölkədə üç günlük matəm elan edib.

❑ **Əli Rais**
**Fotolar müəllifindir**



# Ölkənin internet problemi düzəldi, amma...

## Ekspertlər bildirirlər ki, internet problemlərinin yaşanması ölkənin informasiya təhlükəsizliyi üçün ciddi təhlükədir

**Noyabrın 16-da ölkədə yaranan internet problemi hələ tam həllini tapmayıb. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, hadisənin fəsadların aradan qaldırılması üzrə tamamlama işləri davam edir: "Azərbaycanın qlobal internet şəbəkəsinə əlaqəsini təmin edən milli operator- "Delta-Telekom" MMM Data Mərkəzinin əsas kabellərinin birində noyabrın 16-da tüstülənmə baş verib.**

Hadisəyə dərhal reaksiya verilərək qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görülüb, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə xidməti də cəlb edilib. Hadisə zamanı açıq yanğın halları baş verməyib, kabellərin əriməsi nəticəsində yaranan tüstü avadanlıqlarda qismən nasazlıq yaradıb. Bununla əlaqədar sistemin ümumi işi dayandırılıb və nəticədə ölkədə internet əlaqəsində kəsinti yaranıb. Hadisə zamanı ölkəmizin tranzit marşrutu üzrə fəaliyyətdə heç bir dayanma baş verməyib və normal xidmət göstərilməsi təmin olunub. Həmçinin digər operatorların alternativ kanalları üzrə ölkədə internet əlaqəsi mövcud olub və bu imkanlardan rabitənin təşkili üçün istifadə edilib. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, aidiyyəti digər dövlət orqanlarının nümayəndələri hadisə yerində olub. Hadisə yerində tüstülənmənin baş verməsi və onun təxirəsalınmaz işlərinin dərhal başlamasına maneələr yaratması səbəbindən internet əlaqəsinin bərpası vaxt tələb edib, gərgin və fədakar əmək nəticəsində saat 21.00 radələrində internet əlaqəsi bərpa olunub. Hazırda ölkədə internet əlaqəsi bərpa edilib və bank sektorunda, dövlət təşkilatlarında və digər sahələrdə internet vasitəsilə göstərilən xidmətlərin fəaliyyəti, o cümlədən fərdi istifadəçilər tərəfindən istifadə təmin edilib. Hadisənin fəsadlarının aradan qaldırılması üzrə tamamlama işləri davam edir".

**İnternet üzrə mütəxəssis Vahid Qasımov isə "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, ölkədə internet təhlükəsizliyi aşağı səviyyədədir:** "Düzdür, noyabrın 16-da baş verənlərdə təhlükəsizliklə əlaqədar prinsipcə heç nə yoxdur. Bizim əsas internet provayderimizin texniki standartlara diqqətlə riayət etməsi lazım idi. Yanğına qarşı müdafiə sistemləri mövcud olmalı idi. İkincisi, alternativ giriş kanallarının, "data senter"lərin olması lazım idi. Bu cür standartlara riayət olunsa, problem yaranması minimuma enər. Ancaq ümumilikdə belə bir texniki problemlərin olması labüddür. Hər şeyi əvvəlcədən bilmək mümkün deyil. Ancaq "Delta-Telekom"un problemi tez bir zamanda aradan qaldırmasını da qeyd etmək lazımdır. Mən hesab edirdim ki, həmin problemin aradan qaldırılması 2-3 gün çəkəcək. Amma bir gecədə kifayət qədər operativ həll ediblər. Ümid edirəm ki, bu problemdən sonra onlar sistemlərini təkmilləşdirəcəklər. Əslində Azərbaycanın üç əsas provayderi var. Problem, sadəcə, "Delta"da deyil. Bir balaca daha ehtiyatlı olsaydılar, alternativ iki yerdən internet alsaydılar, ölkə bu günə düşməzdi. Etibarlı şirkətlər, dövlət qurumları işlədiyi provayderlərdən tələb etməlidirlər ki, heç olmasa, iki alternativ yerdən internet alınsın, ancaq Rusiyadan gəlməsin. Sputnikdən, peykdən və sair yerlərdən alınsın. Bu, bizim üçün təcrübə oldu. Daha diqqətli olmaq lazımdır".

**Azərbaycan İnternet Forumunun (AİF) rəhbəri Osman Gündüz isə bildirib ki, internet bağlantısının kəsilməsi ölkənin internet təchizatının 90 faizini təmin edən "Delta Telecom" şirkətində baş verən yanğınla bağlı olub:** "Azərbaycan İnternet Forumu bildirir ki, 16 noyabr tarixdə bütün ölkə ərazisində internet təchizatı sahəsində ciddi problem yaranıb. Ölkə ərazisinin böyük bir hissəsində 6 saat müddətində internet olmayıb. Bu müddət ərzində daimi onlayn əlaqə tələb olunan müəssisə və təşkilatların, dövlət və özəl sektorun, xüsusi əhəmiyyətli qurumların, internet media qurumlarının, bank sektorunun fəaliyyətində ciddi problemlər yaşanıb. AİF bildirir ki, internet bağlantısının kəsilməsi ölkənin internet təchizatının 90 faizini təmin edən "Delta Telecom" şirkətində baş verən yanğınla bağlı olub. Yanğın nəticəsində şirkətin texniki sistemində, serverlərində ciddi problemlər yaranıb və internet təchizatı mümkünsüz olub. Yanğının səbəbləri haqqında hələlik şirkət tərəfindən rəsmi açıqlama verilməyib. Hazırda hüquq-mühifizə orqanlarının bununla bağlı təhqiqat apardığı bildirilir. AİF bildirir ki, baş verən hadisə, uzun müddət ölkənin qlobal dünyadan ayrılması, informasiya münasibətlərinin mümkün olmaması, xüsusilə də daimi onlayn əlaqənin vacib olduğu sahələrdə internet problemlərinin yaşanması ölkənin informasiya təhlükəsizliyi üçün ciddi xəbərdarlıqdır. AİF bildirir ki, son illərdə ölkənin milli informasiya fəzasının formalaşması istiqamətində, informasiya təhlükəsizliyinin qorunması istiqamətində müəyyən işlər görülüb. Dövlət və özəl sektorda informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi üçün müəyyən addımlar atılıb. AİF "Delta Telecom" tərəfindən Azərbaycan internetinin qlobal dünyaya bir neçə fərqli magistral kanallar üzərindən bağlantısının qurulması istiqamətində son illərdə atdığı addımları da müsbət dəyərləndirir. Bununla belə, AİF bildirir ki, baş verən hadisə onu göstərir ki, atılan addımlar yetərli deyil və ölkənin informasiya təhlükəsizliyi məsələsinə daha konseptual yanaşmaq vacibdir. Hökumət baş verənlərin təkrarlanmaması üçün dərhal ciddi tədbirlər görməli, bu sahədə rəqabətli mühitin, alternativlər üzərində infrastrukturun formalaşması üçün tədbirlər görməlidir. Müasir dövrdə informasiya təhlükəsizliyinin milli təhlükəsizliyin əsas tərkib hissəsi olmasını nəzərə alaraq AİF ölkənin dayanıqlı informasiya təhlükəsizliyi sisteminin, informasiya infrastrukturunun alternativ təchizatlar və alternativ informasiya şəbəkələri üzərində qurulmasını zəruri hesab edir. AİF dövlət və ictimai sektorda bir müddət müzakirə olunan yeni milli informasiya təhlükəsizliyi konsepsiyasının hazırlanması məsələsinin yenidən gündəmə gətirilməsini vacib hesab edir. AİF bu kimi halların bir daha təkrarlanmaması üçün, ən qısa 2-ci səviyyəli provayderlərin, daimi onlayn əlaqənin əhəmiyyətli olduğu qurumların da informasiya şəbəkəsinin alternativlər üzərində qurulmasının vacib olduğunu diqqətə çatdırır. AİF baş verən hadisənin səbəbləri haqqında ictimaiyyətə rəsmi açıqlamanın verilməsini vacib hesab edir".

❑ **Röya RƏFİYEVA**

# "Ölkənin kəşfiyyat və əks-kəşfiyyatı güclü olmalıdır"



## İlham İsmayıl: "Azərbaycanda təhlükəsizlik sahəsində təcili işlər aparılmalıdır"

**"MTN işi" çərçivəsində aparılan əməliyyatlar nəticəsində ölkənin təhlükəsizliyindən sorumlu olan bir neçə yüksək vəzifəli şəxs həbs olunub. Eyni zamanda ölkə üçün əhəmiyyətli strukturlardan xeyli sayda məmurun fəaliyyəti hüquq-mühafizə orqanları tərəfindən nəzarətə götürülüb.**

Regionda və dünyada baş verən terror aktları, siyasi gərginliklər fonunda hazırda Azərbaycanın təhlükəsizliyi hansı səviyyədə qorunur?

Məsələ ilə bağlı "Yeni Müsavat"a **sabiq MTN əməkdaşı İlham İsmayıl** danışıb. O bildirib ki, əslində ölkənin təhlükəsizliyi nazirlik və ya bir neçə kadrdan asılı deyil: "Ölkənin təhlükəsizliyi qlobal mənadadır. Ancaq terrora qarşı mübarizə məsələsində deyərdim ki, məlum həbslərdən əvvəl də bu, yüksək səviyyədə deyildi. Ordu nə qədər güclü olur-sa-olsun, bunun məsələyə dəxli yoxdur. Ölkənin kəşfiyyat və əks-kəşfiyyatı güclü olmalıdır. Bədbin danışmıram, ancaq bu reallıq bundan ibarətdir ki, yaxşı durumda deyilik".

**Ekspert hazırda ölkənin təhlükəsizliyi ilə bağlı hansı işlərin görülməli olduğundan danışıb:** "Təhlükəsizliyi qorumaq adətən Milli Təhlükəsizlik Nazirliyinin üzərinə düşür. Qismən də polis bu işdən məsuliyyətlidir. Ancaq qabaqlayıcı informasiyanı əldə etmək polisin yox, xüsusi xidmət orqanlarının işidir. Agenturanı bu istiqamətdə yönəltmək lazımdır. Təcili olaraq həm agentura, həm də kadrların içərisində böyük işlər aparılmalıdır. Onu da deyim ki, bu, tezliklə baş verən deyil".

**Ekspert təhlükəsizlik sahəsinin kadrları ilə bağlı aşağıdakıları söylədi:** "MTN-dəki kadrların bir hissəsi Namiq Abbasovun dövründə, digərləri isə Eldar Mahmudovun çalışdığı illərdə vəzifələrindən uzaqlaşdırıldı. İndiki halda kadrlar MTN Akademiyasını bitirənlərdən təşkil olunur. Onların hazırlıqlarından da xoş informasiyalar gəlmir. Məlumatlara görə, nazirliyin akademiyasına da qəbul rüşvətlə aparılıb. Ona görə də burada peşəkarların yetişməyindən danışmağa dəyməz. Nəzəriyyə ilə praktika başqa şeydir. Praktikanı bilən adam lazımi anda tamam başqa hərəkətlər edir. Bu işdə bir məqam da var ki, lap nazirlik tamamilə peşəkarlardan ibarət olsa da, ölkəyə qarşı ciddi şəkildə terror hadisəsi planlaşdırsalar, bunun qarşısı almaq mümkün olmayacaq. Misal üçün, Parisdə baş verən hadisəni göstərə bilərik. Dünyanın heç bir ölkəsi terrordan sığortalanmayıb. Amerika, Fransa kimi güclü xüsusi xidmət orqanları olan ölkələr də terrora məruz qalır. On terrordan səkkizinin qarşısı alına bilərsə, bu böyük bir işdir. Bu da peşəkarlıqdan asılıdır. Güman və arzu edək ki, yaxşı olacaq. Hər halda, yeni rəhbərlik də yəqin ki, bunun üçün çalışır. Ancaq işlərin zamana ehtiyacı var".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015

# Avtomobili qışa necə hazırlamalı...

## Ən əsas məsələ qış şinləridir; antifriz, şüşəyuyanın suyunun donmaması üçün müvafiq maddə əlavə edilməsi də şərtdir…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi havanın kəskin soyuyacağı, güclü yağış və sulu qar yağacağı ilə bağlı xəbərdarlıq edib. Bu o deməkdir ki, qış qapıdadır. Payız-qış mövsümünün başlaması ilə əlaqədar artıq qonşu ölkələrdə avtomobillərin qış rejiminə keçidi rəsmi şəkildə elan edilib. Avtomobil təkərlərini qış fəsli üçün nəzərdə tutulmuş şinlərlə təmin etməyənlər qanunla cərimə edilir. Azərbaycanda da artıq güclü yağışlar başlayıb.**

Yollarda suyun yığılması, bəzi yolların qaydasında olmaması artıq avtomobillərə ziyan vurmağa başlayıb. Lakin avtomobil sahibləri üçün daha ekstremal vəziyyət qışda yaranır. Qarlı havalarda yaşana biləcək bədbəxt hadisələrlə üzləşməmək üçün mütəxəssislər sürücülərə bəzi tövsiyələr verir. Qanun tələb etməsə belə, deyilən hazırlıqları görmək sizi və avtomobilinizi qışdan salamat çıxara bilər.

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ən əsas məsələ maşınların qış şinləri ilə təmin olunmasıdır:** "Bizim qanunvericilikdə avtomobillərin qış rejiminə keçidi ilə bağlı xüsusi hallar nəzərdə tutulmayıb. Bir çox ölkələrdə qış mövsümü ilə bağlı qanunvercilikdə müəyyən inzibati şərtlər nəzərdə tutulub. Məsələn, qonşu Rusiyada qanunvericilik belədir ki, noyabrın 1-dən martın 31-nə qədər avtomobillərin qış təkərləri yoxdursa, həmin avtomobilin istifadəsinə icazə verilmir. Məsələn, bu aylarda polis əməkdaşları görsə ki, avtomobilin təkərləri qış mövsümü üçün nəzərdə tutulmuş təkərlər deyil, həmin sürücü cərimə olunur. Bizdə isə qanunvericilikdə belə hal yoxdur. Bizdə bunu sürücülərin insafına buraxıblar. Düzdür, sürücü hazırlığı zamanı hər bir sürücüyə hər şəraitə və fəsilə uyğun olaraq avtomobilin təchizatı, idarə olunması, təhlükəsizliyi qaydaları öyrədilir. Hər bir sürücü bunları bilməlidir və daim riayət etməlidir.

Əsas məsələlərdən biri təkərin qış rejiminə uyğunlaşdırılmasıdır. Avtomobilin təkərləri şinləri üzərində hərəkət edir. Bu baxımdan qışda qarda, buzda, palçıqda, suda hər şinlə avtomobil idarə etmək olmaz. Bunun üçün xüsusi qış təkərləri olmalıdır. Havanın temperaturu müsbət 5 dərəcədən aşağı olduqda artıq qış təkərlərinə keçilməsi məsləhət görülür. Qarda, buzda isə bu, xüsusi diqqət tələb edən məsələdir. Bəzən hətta qış təkərləri də buzlu yolda yetərli olmur. Buzlu yola çıxarkən təkərlər zəncirlənməlidir. Qarlı havada ən yaxşı variant isə şəxsi avtomobildən deyil, ictimai nəqliyyatdan istifadə etməkdir".



**Ekspertin sözlərinə görə, ikinci önəmli məsələ avtomobillərin soyutma sistemlərinin qaydasında olmasıdır:** "Soyutma sisteminə xüsusi mayelər tökülür. Bəzi sürücülər özlərinə güvənərək, ən primitiv üsulla adi su tökürlər. Lakin havanın temperaturu sıfıra çatan kimi adi su dona və mühərrik dağıla bilər. Mütləq şəkildə qış aylarında avtomobilin soyutma sisteminə sırf bunun üçün nəzərdə tutulmuş xüsusi maye - antifriz, tosol tökməlidir. Sürücü onu da nəzərə almalıdır ki, bu maye hansı iş rejimi üçün, hansı temperatur üçün nəzərdə tutulub. Qış sərt keçərsə, avtomobilə şaxta dərəcəsinə uyğun maye tökülməlidir.

Üçüncü bir məsələ, avtomobilin havalandırma, qızdırma sistemi normal olmalıdır. Elə olmalıdır ki, şüşələr tərləməsin, tərləsə də bunu aradan qaldırmaq üçün havalandırma sistemi qaydasında olmalıdır. Bunu əllə silmək düzgün deyil. Şüşələr tərləyən kimi içəridən gələn hava axını onu qurutmalıdır. Əks halda, görməyə mane ola, qəza şəraiti yarada bilər".

**Ekspertin sözlərinə görə, qeyd edilən məsələlər qanunda nəzərdə tutulmadığından hər bir sürücünün peşəkarlığından asılıdır:** "Bizim qanunvericilikdə ona görə, bu hallar nəzərdə tutulmayıb ki, bizdə hava şəraiti xüsusi problemlər doğurmur. Lakin bu sadalanan məsələlərdə bağlı nəzarət var. Məsələn, avtomobilin şüşəsiləni işləmirsə, bu inzibati xəta sayılır, cəriməsi də 150 manatdır. Lakin bir çox hallarda avtomobillərin havalandırma sistemi nasaz vəziyyətdə olur və ya süzgəcləri tutulur. Çox zaman sürücülər bilmir ki, bunu necə işlətməlidirlər. Bunlar qanunda var. Əsas məsələlərdən biri avtomobillərin akkumulyatoru ilə bağlıdır. Sürücülər nəzərə almalıdırlar ki, hava soyuyanda akkumulyatorların tərkibində fiziki-kimyəvi proseslər gedir. Bu proseslərin mahiyyəti temperaturla bağlıdır və soyuq havada zəif akkumulyatorlar tez sıradan çıxır".

**Nəqliyyat eksperti paytaxt yollarındakı vəziyyətə də toxunaraq, bunun avtomobilə vura biləcəyi ziyandan danışdı:** "Yağıntı zamanı yolda su çoxdursa, bu, avtomobil üçün təhlükəlidir. Çünki əhalinin istifadə etdiyi avtomobillərin 90 faizi normal rejimdə işləmək üçün nəzərdə tutulan avtomobillərdir. Onlar çay keçmək, palçıq yarmaq üçün nəzərdə tutulmayıb. Yol normal deyilsə, avtomobilin altı, əyləc, mühərrik, reduktor suya batırsa, mütləq ona diqqət yetirmək lazımdır, açdırıb təmizlətmək lazımdır. Çünki sürətlə aşınma gedib avtomobili sıradan çıxara bilər. Avtomobilin təkəri tam şəkildə suya batırsa, bu zaman əyləc qəlibləri də islanır, tormozlanma pisləşir. Bu zaman sürətlə hərəkət etmək olmaz və sair. Sürücülər bu haqda məlumatlı olmalı və qışa hazırlıqlı getməlidirlər".

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 256 (6284) 18 noyabr 2015



# Hərbçilərin və xüsusi xidmət orqanlarında çalışanların pensiya müddəti artırıla bilər

## Üzeyir Cəfərov: "24 saat ekstremal vəziyyətdə çalışan hərbi qulluqçuların xidmət müddətinin artırılması doğru addım deyil"

**Dövlət Sosial Müdafiə Fondunda hüquq-mühafizə orqanlarında və silahlı qüvvələrdə xidmət müddətinin artırılması ilə bağlı müzakirələr gedir. Bu barədə yazan "Azadlıq" qəzetinin iddialarına görə, bu məsələ "Əmək pensiyaları haqqında" Qanunda dəyişikliklər layihəsində öz əksini tapıb və müvafiq nazirliklər layihəni baş nazirə təqdim ediblər. Layihəni əldə edən "Azadlıq" qəzeti orada nəzərdə tutulan dəyişiklikləri açıqlayıb.**

Qəzet yazır ki, maliyyə böhranına görə hüquq-mühafizə orqanlarında və silahlı qüvvələrdə xidmət müddətinin 5-10 il civarında artırılması, başqa bir məlumata görə, 25 ilə çatdırılması nəzərdə tutulur. Belə ki, dəyişiklik qəbul edilərsə, hazırda prokurorluq orqanlarında azı 25 il qulluq etmiş prokurorluq işçiləri yaşa görə əmək pensiyasına çıxa bilirsə, o müddət artırılaraq 35 ilə çatdırılacaq.

Hazırda 25 il və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını prokurorluq orqanlarında qulluq etmiş şəxslər əmək pensiyasına çıxa bilirsə, dəyişikliyə görə, bu müddət 17 il 6 aya qaldırıla bilər. Qanuna görə, hərbi xidmətdən buraxılanadək 20 il və daha çox hərbi xidmət etmiş qulluqçular əmək pensiyasına çıxa bilər. Dəyişiklikdə isə 20 ilin 10 il də artırılması təklif olunur.

Qəzetin iddialarına görə, digər xüsusi xidmət orqanlarında çalışan şəxslərin stajının da artırılması nəzərdə tutulur. Mətbuatda səslənən iddialara cavab verən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev bildirib ki, hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin güzəştli şərtlərlə pensiyaya çıxması üçün tələb olunan xidmət müddətinin 30 ilə qaldırılması nəzərdə tutulmur. "APA-Economics"ə açıqlama verən DSMF sədri qeyd edib ki, bu təklif ilkin mərhələdə nəzərdən keçirilən müxtəlif variantlardan biri idi və hazırda müzakirə olunmur".

**DSMF sədri Elman Mehdiyev eyni zamanda islahat tədbirləri çərçivəsində demoqrafik göstəricilərin, o cümlədən ömür uzunluğu göstəricisinin pensiya sisteminə təsirinin tənzimlənməsi zəruriliyini önə çəkərək bildirib ki, hazırda silahlı qüvvələrdə və daxili işlər orqanlarında çalışan hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin güzəştli pensiya təminatı üçün tələb olunan xidmət müddətinin 25 ilə çatdırılması məsələsi nəzərdən keçirilir:** "Təklif qəbul edilərsə, bu qaydalar pensiyaya çıxmış şəxslərə şamil edilməyəcək və onların pensiyası gələcəkdə





yenidən hesablandıqda təyinat tarixinə tətbiq olunmuş əvvəlki qayda tətbiq ediləcəkdir. Buna görə də təyin olunmuş pensiyaların gələcəkdə məbləğinin dəyişməsi barədə narahatçılığa heç bir əsas yoxdur".

**Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin güzəştli pensiya təminatı üçün tələb olunan xidmət müddətinin 25 ilə çatdırılması məsələsinə münasibət bildirən hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu dəyişiklik qəbul olunsa, çox böyük müzakirələrə səbəb olacaq:** "Hərbi qulluqçular və xüsusi strukturların nümayəndələri hərbi xidmət müddətinin 25 ilə qaldırılmasını birmənalı qarşılamayacaqlar. Əgər bu reallaşacaqsa, həm hazırda hərbi xidmətdə olan, həm də gələcəkdə hərbçi peşəsini seçmək istəyən insanlar tərəfindən çox ağrılı qəbul olunacaq və bunun fəsadları olacaq.

Hərbi xidmət müddəti həm tibbi baxımdan, həm də hərbinin xüsusiyyətləri nəzərə alınmaqla 20 il müddətinə hesablanmışdı. Birdən-birə bunun 25-30 ilə qaldırılması söhbəti ortaya atıldı. Azərbaycanda bu cür hallar olur ki, əvvəl ideyanı verirlər, cəmiyyətdə ekspriment formasında sınaqdan keçirirlər, sonra isə özünü doğrultmadıqda bundan imtina edirlər. Məsələn, Müdafiə Nazirliyinin yeni rəhbərliyinin müddətdən artıq xidmət edənlərlə bağlı təşəbbüsü çox gözəl təşəbbüs idi, çox lazımlı addım idi. Sonradan onlardan bəziləri özlərini doğrultmadı və indi həmin məsələdə korrektələr həyata keçirilir".

**Hərbi ekspertin fikrincə, 25 il məsələsi həm xidmətdə olan, həm də bu peşəni seçmək istəyən insanlar üçün bir çəkindirici amil olacaq:** "Sabah hərbçi peşəsinə keçmək istəyən adam bir qədər fikirləşməli olacaq və bu da hərbiyə gələnlərin sayını azaldacaq. Bunun əvəzində sosialyönümlü digər qanunların icrasına nəzarət etsinlər. Məsələn, hərbi qulluqçuların və xidmətdən ehtiyata buraxılmış şəxslərin qanunla mənzil hüququ olsa da, Azərbaycanın icra strukturları bunu icra etmirlər, bəhanələr gətirirlər ki, bizim torpaq sahəmiz yoxdur və sair.

Bu 25 il məsələsi insanlar arasında narahatlığa səbəb olur, bizə də müraciət edirlər bununla bağlı. Mən istəməzdim ki, bu məsələ reallaşsın və isti kabinetlərdə oturan məmurlar cəbhənin ön xəttində xidmət edən hərbi qulluqçuların haqqında belə qərar versinlər. Bu qərar onlara pis təsir edəcək və mənfi əhval-ruhiyyə yaradacaq. Bu təklif verilsə də məntiqli bir əsaslandırması yoxdur. Əgər söhbət ömür uzunluğu göstəricisinin artmasından gedirsə, mən hesab edirəm ki, əksinə, hazırda qidaların keyfiyyətsizliyi, ekoloji çirkli mühit və sair insan ömrünün qısalmasına gətirib çıxarır.

Hərbi xidmət dedikdə son dərəcə ağır iş rejimindən söhbət gedir. Bu insanlar sutkanın 24 saatı ayaq üstə ağır rejimdə xidməti vəzifələrini yerinə yetirirlər. Əgər bu addım atılacaqsa, mənfi nəticələri müsbətdən daha çox olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# "Qaçqınkom"un mənzil bölgüsü Mingəçevirdə etiraza səbəb olub

## Məcburi köçkünlər mənzillərin bölgüsü zamanı saxtakarlığa yol verildiyini iddia edirlər







**Ağdam rayonundan məcburi köçkün olan Mingəçevir şəhər sakini Nazeykə Süleymanova dövlət tərəfindən verilən mənzillərdən ona pay düşməməsindən narazıdır. "Yeni Müsavat"ın redaksiyasına müraciət edən keçmiş Texniki Universitetin yataqxanasında məskunlaşan məcburi köçkün deyir ki, bir müddət öncə 150-yə yaxın ailə köçürülsə də, ona və başqa 20 ailəyə mənzil verilməyib.**

Xatırladaq ki, oktyabrın 16-da həmin məcburi köçkünlər mənzil bölgüsünə etiraz olaraq aksiya keçirmişdilər. Sakinlər aksiya zamanı da mənzillərin bölgüsü zamanı saxtakarlığa yol verildiyini iddia edirdilər.

Qeyd edək ki, 1993-cü ildən Texniki Universitetin qəzalı vəziyyətdə olan yataqxanasında 176 ailə yaşayıb. Burada Ağdam, Füzuli, Laçın rayonlarından məcburi köçkünlər məskunlaşıblar. Bir müddət öncə, 20-yə yaxın ailə istisna olmaqla digərləri məcburi köçkünlər üçün nəzərdə tutulmuş yeni evlərə köçürülüb. Mənzillə təmin olunmayan sakinlər isə etirazlarını davam etdirirlər.

Onların məqsədi bölgünün ədalətli şəkildə aparılması və aidiyyəti olmayan kəslərə evlərin satılmasının qarşısının alınmasıdır.

**Ağdam rayonunun Xıdırlı kəndindən olan şikayətçi Nazeykə Süleymanova deyir ki, ayrı yaşamalarına baxmayaraq, qızı ilə ona bir mənzil təklif ediblər:** "1993-cü ildən bu yataqxanada məskunlaşmışam. Heç yerə köçməmişəm. Qızım ailəsindən ayrıldıqdan sonra başqa bir mənzildə məskunlaşıb. Mənimlə heç bir əlaqəsi yoxdur. Ayrı-ayrı evlərdə yaşayırıq. Mənzillər verilən vaxtı mənə ev verməmək üçün adımı qızımın üstünə yazıblar. Mən isə haqqımı tələb edirəm. Prezident Administrasiyasına teleqram vurmuşam, işə baxılması üçün "Qaçqınkom"a göndəriblər. "Qaçqınkom"dan isə mənə bildirirlər ki, sizin eviniz var. Dəfələrlə bildirmişəm ki, mənim qızımın evi ilə əlaqəm yoxdur. İllərdir ki, ev növbəsini gözləmişəm. Bir sözlə, bəhanə gətirib mənə ev vermək istəmirlər. Haqqımı tələb etdiyim üçün mənə hədə-qorxu gəlirlər".

Nazeykə Süleymanova onu da bildirdi ki, əgər onun başına bir iş gəlsə, Mingəçevir Rayon İcra Hakimiyyəti və Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri məsuliyyət daşıyacaq.

Qeyd edək ki, köçürülən ailələrin mənzilləri səliqəsiz şəkildə söküldüyündən binanın qaz, işıq, su xətləri sıradan çıxıb. Yataqxanada yaşayan sakinlər kommunal problemlərdən əziyyət çəkirlər.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

Son səhifə

*N 256 (6284) 18 noyabr 2015*


# 213 dollara Amerika səyahəti

Maşını kirayə götürüb Amerikanı başdan-başa gəzmək bir çox turistin xəyalıdır. Lakin Derek Lov bu səyahət üçün başqa bir yol seçib. O, qatarla səyahətə çıxaraq Amerikanı cəmi 213 dollara gəzəcəyini iddia edib. Lov 213 dollar xərcləyərək 5 min 472 kilometr yol gedəcəyindən əmin idi. Amerikadakı bəzi qatar şirkətləri sərnişinləri razı salmaq üçün onları istədikləri kəndlərə və qəsəbələrə apara bilir. Bu səbəblə Lov Amerikanı gəzmək üçün San-Fransisko - Nyu-York yolunu seçərək Amerikanın ən köhnə gəzinti xəttini seçib. Sosyalnedya.co saytına müsahibə verən Lovnun səyahəti 5 min 742 kilometrlik yolu dayanmadan getdiyi üçün cəmi 4 gün davam edib.





## Papadan küsüb müsəlman olacaq

Serbiyada qəribə hadisə baş verib. Paytaxt yaxınlığındakı Sopiç kəndinin sakinləri papaya əsəbiləşdikləri üçün din dəyişdirməyə qərar veriblər. Məlumatlara görə, kəndin 150 illik kilsəsi fırtınadan sonra zədələnib. Kilsənin yararsız hala gəlməsindən sonra papa kilsənin yıxılması haqda müraciət edib. Bundan sonra isə kəndlilər Patrik İrineyə məktub yazaraq kilsənin yıxılmasını istəmədiklərini deyiblər. Bundan sonra isə kilsə yıxılarsa müsəlman dininə keçəcəklərini deyərək Patriki təhdid ediblər. Məktublarına dəstək gözləyən kəndlilər kilsəni saxlaya biləcəklərini deyiblər. AA-ya müsahibə verən kəndlilərdən biri din dəyişdirmənin onlar üçün etiraz əlamətini olduğunu deyib. Kəndlilərin fikrincə, başqa dindən olanlar Serbiyada daha çox haqqa sahibdirlər. Kəndə bir neçə dəfə kilsəni yıxmaq üçün işçilər gəlsə də kəndlilər onlara imkan verməyiblər. Çünki onlar kilsənin tarixi əsər kimi saxlanılmasını istəyirlər. Papa isə kilsənin yararsız halda olduğunu, yeni bir kilsə tikilməsinin önəmli olduğunu deyir.

## Yaddaş pozğunluğuna çarə

**Yaddaş pozğunluğunun qarşısını almaq üçün 6 carə:**

**1.** Stresdən uzaq olmaq lazımdır.

Problemlərin, ağır işlərin yaratdığı gərginlik baş və boyun ağrılarına, ürək döyüntüsünə, titrəməyə, ya da tərləməyə səbəb olur. Belə hal baş verən zaman fasilə verib, bir neçə dəqiqə nəfəs texnikaları ilə rahatlamaq lazımdır.

**2.** Yuxu rejiminə və səhər yeməyinə diqqət edin.

Yorğunluğun bir çox səbəbi var: yuxusuzluq, qan şəkərinin aşağı səviyyədə olması, dəmir azlığı, D və B12 vitamininin çatışmazlığı. Bir yeniyetmənin günə enerji ilə başlayıb uğurlu davam etdirməsi üçün 6-8 saatlıq səmərəli yuxu kifayətdir. Mütləq vaxtında yeməyə diqqət edin.

**3.** Bir neçə işlə eyni vaxtda məşğul olmayın.

Eyni anda birdən çox işə yönəlmək diqqətsizliyə gətirib çıxarır. İşlərinizi bir-bir həll etməyə çalışın.

**4.** Telefondan xilas olun.

Susmayan telefon, zənglər, "Whatsapp"dan gələn xəbərdarlıq mesajları diqqət dağıtmaq üçün kifayətdir. Yaxınlarınıza iş saatlarında ancaq vacib zənglərə cavab verdiyinizi deyin.

**5.** İçdiyiniz dərmanların da əks göstərişi ola bilər.

Depressiya, yuxusuzluq kimi ruhi problemlər üçün həkimlərin təklif etdiyi dərmanların da bir hissəsi diqqət pozğunluğuna səbəb olur.

**6.** İş fasilələrini dəyərləndirin.

Davamlı eyni işlər, monotonlaşan tədbirlər bir müddət sonra diqqət dağılmasına gətirib çıxarır. Beyni rahatlatmaq üçün fasilə verin, çıxıb 10 dəqiqə gəzin (milli.az).





## Evlilik təklifi həyatını məhv etdi

Turist olaraq Hindistana gedən Rusiya vətəndaşı Darya Prokina aldığı evlilik təklifini qəbul etmədiyi üçün həyatı məhv olub. Rus qadın hindistanlı bir ailənin evində kirayədə qalmağa qərar verib və bu qərar ona baha başa gəlib. Çünki ev sahibinin oğlu ona aşiq olub və onunla evlənmək istədiyini bildirib. Evlilik təklifini qəbul etməyən qıza əsəbiləşən adı açıqlanmayan hindli gənc onun üzünə yandırıcı maddə töküb. Qısa müddət ərzində xəstəxanaya aparılan qızın üzünün 45%-nin yandığı deyilir. Gənc qız Rusiyanın Hindistandakı səfirliyinin həkimi ilə birlikdə müalicə üçün öz ölkəsinə göndərilib. D.Proinanın üzünü yandıran şəxsə nə cəza veriləcəyi isə hələ də bəlli deyil.




**QOÇ** - Nahara qədər ciddi işlərinizin həllini təxirə salın. Sövdələşmə və müzakirələr üçünsə ümumiyyətlə, uğursuz ərəfədir. Bu gün yalnız ailə-məişət məsələləri ilə məşğul olmalısınız.

**BUĞA** - Praktiki işlərə aludə olmaqdansa nəzəri fəaliyyətə üstünlük verin. İdeal planlarınızın gerçəkləşməsində bunun rolu böyükdür. Ulduzlar maddi durumunuzun qənaətbəxş olacağını da istisna etmir.

**ƏKİZLƏR** - Mövcud durumunuzdan usanmaq yox, aktiv surətdə çıxış yolları aramalısınız. Əgər rahatlığınızın təminatı üçün başqa yol da tapa bilmirsinizsə, saat 16-ya qədər gözləmə mövqeyində durun.

**XƏRÇƏNG** - Böyük sınaqlar qarşısındasınız. Hər şey atacağınız addımlardan birbaşa asılı olacaq. Bu səbəbdən də bütün məsələləri dəfələrlə götür-qoy edib sonra qərar çıxarın. Hər adama da etibar etməyin.

**ŞİR** - Saat 9-10 aralığını nəzərə almasaq, qalan saatları normal tərzdə başa vuracaqsınız. Həyatınızda mühüm rolu olmayan, sizə qarşı soyuq münasibət bəsləməyən adamların şəxsi işlərinə müdaxilə etməsəniz, kimsə sizə qarşı qərəz nümayiş etdirməyəcək.

**QIZ** - Maliyyə zəminində çətinliyiniz mümkündür. Amma unutmayın ki, indi çoxları sizdən də pis yaşayır. Özünüzü kontrolda saxlayın, həmkarlarınıza qarşı təmkin göstərin. Səhhətinizə də fikir verməlisiniz.

**TƏRƏZİ** - Saat 11-13 aralığı daxilinizdə süstlük yaratsa da, sonrakı saatlarda ovqatınızda nəzərəçarpacaq dönüş yaranacaq. Deməli, narahatlığınız əridiyi üçün müəyyən işlər də görə biləcəksiniz.

**ƏQRƏB** - Ulduzların düzümü böyük irəliləyişlər astanasında olduğunuzu bəyan edir. Bu gün qarşıya qoyduğunuz vəzifələrin həllində kənardan dəstək alacağınız gözlənilir. Daxili səsinizə qulaq asın.

**OXATAN** - Bütün astroloji mənbələr ayın ən qalmaqallı gününü yaşayacağınızı göstərir. Ələlxüsus da saat 16-18 arası hər bir davranış və ünsiyyətinizdə təmkinli olmalısınız. Sıxıntınız olsa, müqəddəs bir məkana gedin.

**OĞLAQ** - Bürcünüz üçün kifayət qədər aktiv gündür. Bir neçə cinahdan xeyirli gedişlər edə bilərsiniz. Belə məqamlarda etibar etdiyiniz dostlarınızın dəstəyindən yararlanmaqdan da çəkinməyin.

**SUTÖKƏN** - Daxili tərəddüd və nigarançılığınızı duyan Göy qübbəsi saat 14-dən başlayaraq istər qarşılıqlı münasibətlərdə, istərsə də maddi durumunuzda əsaslı dönüş yaradacaq. O vaxta qədərsə səbli olun.

**BALIQLAR** - Mübahisəli bir gün yaşayacağınız gözlənilir. Əlxüsus da iş yerində belə xoşagəlməzliklər daha çox qabara bilər. Əsəblərinizi cilovlamağa çalışın. Yalnız yaxşı şeylər barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qara ətli quş



İndoneziyada yetişdirilən və Asiyadakı mağazalarda satılan toyuğun tükləri, yumurtaları, əti və sümükləri qapqaradır. Toyuğun dadı isə adi toyuqlardan seçilmir. İndoneziyada saxlanılan toyuğu görənlər şoka düşür. Qara tüklü olması ilə diqqət çəkən toyuğun ən maraqlı özəlliyi isə sümüyünün və ətinin qara olmasıdır. Toyuğu görən hər kəs əvvəlcə onun dadı ilə maraqlanır. Ayam Cemani adı verilən toyuqlar Çin, Hindistan və Asiyada saxlanılır. Tez əhliləşdirilə bilən toyuqları daha çox sirklərdə görmək mümkündür. Dünyanın ən gözəl toyuqlarından biri olan Ayam Cemani rəngi ilə hər kəsi təəccübləndirsə də, gözəlliyi ilə özünə qoyur.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300